

# Generalların həbs növbəsi

*Yola salmaq üzrə olduğumuz həftə Müdafiə Nazirliyinin (MN) Maliyyə və Büdcə İdarəsinin rəisi, general-mayor Nizami Məmmədov həbs olundu. Bu barədə yayılan məlumatda bildirilirdi ki, general-mayor Dövlət Təhlükəsizliyi Xidmətində davam edən cinayət işi üzrə saxlanılıb.*

Səh.8


# UNİKAL

№08 (2093) 4 mart 2022-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




# Elsevər Ağayevin təftiş əndişəsi...

## Sabiq nazir müavininin fəaliyyəti yoxlanılacaq?

*Ötən ayın əvvəlində ölkə başçısının imzaladığı müvafiq sərəncamlar ilə səhiyyə nazirinin müavinləri vəzifələrindən azad olundular. Belə ki, sərəncamlarla Nigar Ramiz qızı Əliyeva, Elsevər Məmməd oğlu Ağayev, Rahim Rafail oğlu Əliyev, Viktor Kərimoviç Qasımov işdən çıxarıldılar. Vəzifəsindən azad olunanlardan biri Elsəvər Ağayev bunun ardınca yerli KİV-ə qısa açıqlama vermişdi. Keçmiş nazir müavini kefinin yaxşı olduğunu bildirmişdi: "Kefim əladır. Biraz işlərim var. İşimdən azad olunmağımla bağlı hansısa şərh vermək istəmirəm. Sonra danışarıq".*

Səh.7

Səh.9

# Ermənistan masada da tərkisilah edilir: Sülh sazişi imzalanacaq



## "Müharibə Rusiyanın tam dağılmasına qədər gedəcək"



*Bir həftədən çoxdur ki, Rusiya-Ukrayna müharibəsi davam edir. Ukraynaya hücuma görə Qərb Rusiyaya sanksiyalar tətbiq edib. Bu sanksiyaların qarşılığında Rusiya müharibəni dayandıracaqmı? Proseslər hansı istiqamətdə davam edəcək? Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu "Unikal"a...*

Səh.4

## Qərbin sanksiyaları Rusiya iqtisadiyyatına ciddi təsir edəcək



*Rusiya ilə Ukrayna arasında baş verən müharibə təkcə bu iki ölkə arasında elan edilən hədəflər uğrunda yox, daha çox yeni geopolitik düzən uğrunda müharibədir. Bunu "Unikal"a açıqlamasında iqtisadçı deputat Əli Məsimli deyib. Onun sözlərinə görə, Qərbin Rusiyaya tətbiq etdiyi...*

Səh.6

## Ukraynada yaşayan azərbaycanlılar həmrəydir



*Ukraynada aparılan müharibə bu ölkədə yaşayan xeyli sayda həmvətənimizin təxliyə məsələsini gündəmə gətirdi. Artıq bu ölkədən Azərbaycana xeyli sayda soydaşımız təxliyə olunub. Azərbaycanlılar həmrəylik göstərərək Ukraynanın bombalanan şəhərlərində qalan insanlara, öz həmvətənlərimizə dəstək göstərir. Ukraynada qalan tələbələr də təxliyə üçün...*

Səh.11

# "Cabir Abdullayevə görə Şuşada xəcalət çəkdim" - Şamil Süleymanov



***”Bir ildir eyforiyadayam: öz vətənimə, Şuşaya getmişdim. Cənnətə düşmüşdüm. Bütün məşhurlar da orada idi. Flora Kərimova məni qucaqlayıb ağlayırdı. Hamı bir-biri ilə mehriban idi”.***

“Unikal” xəbər verir ki, bu sözləri Xalq artisti Şamil Süleymanov ”Həmin Zaur” proqramında deyib. Aktyor Əməkdar artist Cabir Abdullayevlə bağlı xatirəsini bölüşüb: ”Xəcalət çəkdim, Cabir Abdullayevi küçədə tanımadım. Bazardan gül alırdı, çiçək əkmək istəyirdi. Mənə dedi Cabir Abdullayevəm, yəqin yaşlılıqdandır. Cıdır düzündə gördüm elə bilir onu heç kim görmür, şeir deyirdi. Bilmirəm yaxşı, yoxsa pis müğənnidir. Kənara çəkilib, qayaların dibində oturub, Cıdır düzündən baxır, oxuyur. Bilmirəm ağlayır, bilmirəm gülür, bilmirəm nədir. Utandığımdan yaxınlaşa da bilmədim. Gəlib oturub, qulaq asdım”.

# Samirdən küsülü olduğu deyilən Elnurla bağlı paylaşım




***Bu gün müğənni Elnur Hüseynovun ad günüdür.***

“Unikal” xəbər verir ki, onu təbrik edənlər arasında duet ortağı, tez-tez küsülü olmaları ilə gündəmə gələn Samir Cavadzadə olub. O, Elnurla fotolarını yayımlayaraq həm onu təbrik edib, həm də küsülü olmadıqlarını göstərməyə çalışıb.

Qeyd edək ki, Samir və Elnur 2008-ci ildə ”Eurovision” yarışmasında ”Day after day” mahnısı ilə Azərbaycanı təmsil etmişdi. İfaçılar həmin yarışmadan sonra bir araya gəlməyib. 2018-ci ildə tədbirlərin birində Axşam.az obyektivi qarşısına birlikdə keçən sənətçilər duet oxuyacaqlarını desələr də, hələ planları baş tutmayıb. Onlar daha sonra yenidən danışmadıqları xəbəri ilə gündəmə gəlmişdilər.

# Samirə gedişinin səbəbini açıqladı

***“Eurovision” təmsilçilərimizdən olan Samirə Əfəndi uzun fasilədən sonra yenidən instaqtamını yenidən açıb.***

“Unikal” xəbər verir ki, müğənni profilini bağlamasının səbəbini açıqlayıb: “Niyə itdim? Cavab sadədir, mənə fasilə lazım idi. Bütün düşüncələrimi toplamaq, gələcək planlarımı fikirləşmək və istirahət etmək üçün. İndi isə mənim sevimli dostlarım, sizinlə daha yaxın olmaq və sizi gündəlik həyatımın atmosferinə daha çox salmaq istəyirəm. Hazırsınız?”.



# Manaf Ağayev azadlığa çıxır



***Manaf Ağayevin azadlığa çıxacağı tarix məlum olub.***

“Unikal” lent.az-a istinadən xəbər verir ki, M.Ağayevin həbs müddəti martın 4-də bitir. Müğənni sabah azadlığa buraxılacaq.

Qeyd edək ki, Manaf Ağayev fevralın 18-də məhkəmənin qərarı ilə 15 sutkalıq inzibati qaydada həbs edilib. Buna səbəb isə müğənninin işğaldan azad edilən Füzuli şəhərinə qanunsuz səfər etməsi olub.

# "Yaşatdığınızı yaşayın" - İradə İbrahimova



***Müğənni İradə İbrahimova Rusiyanın Ukraynaya hücumu ilə bağlı paylaşım edib.***

“Unikal” xəbər verir ki, ifaçı instaqramda hekayə bölümündə müharibədən görüntülər yayımlayıb.

İbrahimova ”Nə yazacağımı bilmədim. Yaşatdığınızı yaşayın” sözlərini əlavə edib.

Qeyd edək ki, İ.İbrahimova turkiyəli iş adamı ilə ailəlidir və İstanbulda yaşayır. Cütlüyün iki övladı var.

# Aygün Kazımova yeni imicdə

***Xalq artisti Aygün Kazımova yenidən imicində dəyişiklik edib.***



“Unikal” axşam.az-a istinadən xəbər verir ki, sənətçi yeni görünüşdə fotolarını İnstaqramda səhifəsində paylaşıb. Sarı saçlarını kəsdirərək tünd rəngə boyatdıran sənətçi azərbaycanlı dizayner Rüfət İsmayılın geyimlərində kamera qarşısına çıxıb.

Xalq artistinin stili üzərində Zeynəb Şimşək çalışıb. Fotoların müəllifi isə Erman İştahlıdır.

# “Xəyanəti bağışlamaq olar” - Gülay Zeynallı



***Müğənni Gülay Zeynallı müzakirələrə səbəb olan açıqlama verib.***

“Unikal” olay-a istinadən xəbər verir ki, ”MTV xəbər”ə danışan sənətçi xəyanətlə bağlı sualları cavablandırıb.

”Ümumiyyətlə insanı bağışlamaq olar. Çünki Allah əfv edəndirsə, biz də bağışlamağı bacarmalıyıq. Elə şeylər var ki, keçmək lazımdır. Hərə bir cür düşünür. İnsan həmin dəqiqə sənə yalan danışır. Amma sonra fikirləşir, səhvini anlayır. Ona görə yalanı, xəyanəti haradasa bağışlamaq olar”.

# Aybəniz Haşımova bu halda kamera qarşısına keçdi

***Əməkdar artist Aybəniz Haşımova yeni fotosessiya edib.***

“Unikal” axşam.az-a istinadən xəbər verir ki, müğənni iki fərqli obrazda obyektiv qarşısına keçib.

Haşımovanın stili üzərində Elnur Həsənov çalışıb. Fotoların müəllifi isə Eko Ağalarovdur.



# “Elektron prokurorluq”la bağlı əsasnamə təsdiqləndi

***“Elektron prokurorluq” informasiya sistemi haqqında Əsasnamə” təsdiq edilib.***

”Unikal” xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı fərman imzalayıb.

2. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, “Elektron prokurorluq” informasiya sisteminin aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etsin.

3. Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin ki, “Elektron prokurorluq” informasiya sisteminin formalaşdırılması və aparılması, həmçinin fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Azərbaycan Respublikasının Təhsil Nazirliyinə, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə, Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə, Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fonduna, “Azərsu” Açıq Səhmdar Cəmiyyətinə, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə, “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinə, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Azəriqaz” İstehsalat Birliyinə tapşırılsın və Azərbaycan Respublikasının Mərkəzi Bankına, Azərbaycan Kredit Bürosuna tövsiyə edilsin ki, bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş “Elektron prokurorluq” informasiya sistemi haqqında Əsasnamə”nin 11.2-ci və 11.3-cü bəndlərində nəzərdə tutulmuş məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsini təmin etmək məqsədilə altı ay müddətində zəruri tədbirlər görsünlər və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

5. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Hökumət buludu” (G-cloud) Konsepsiyası”na uyğun olaraq, “Elektron prokurorluq” informasiya sisteminin “Hökumət buludu”na keçidinin təşkili ilə bağlı tədbirlər görsün.

6. Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilsin və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə tapşırılsın ki, “Elektron prokurorluq” informasiya sisteminin təhlükəsizliyinin təmin edilməsi üçün birgə zəruri tədbirlər görsünlər.

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

# Generalların həbs növbəsi...

## Məmur korpusundakı "təmizləmələrdən" sonra sıra onlara çatdı



***Yola salmaq üzrə olduğumuz həftə Müdafiə Nazirliyinin (MN) Maliyyə və Büdcə İdarəsinin rəisi, general-mayor Nizami Məmmədov həbs olundu. Bu barədə yayılan məlumatda bildirilirdi ki, general-mayor Dövlət Təhlükəsizliyi Xidmətində davam edən cinayət işi üzrə saxlanılıb.***

Bakı Hərbi Məhkəməsinin qərarı ilə N.Məmmədov barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilib.İlkin məlumata görə, Nizami Məmmədov 80 milyon 600 min manat vəsaiti mənimsəməkdə təqsirləndirilir.

Xatırlatmaq yerinə düşər ki, bundan əvvəl Azərbaycanın hüquq-mühafizə orqanlarının Müdafiə Nazirliyində iri maliyyə dələduzluğunun üstünü açdığı barədə xəbər yayılmışdı. Bildirilirdi ki, nazirliyin yüksək rütbəli zabitləri tutulub. Belə ki, Bakı Hərbi Məhkəməsinin qərarı ilə MN-nin Quru Qoşunlarının maliyyə şöbəsinin rəisi Bayramov Bayram Xəlil oğlu həbs edilib. O, 2 milyon 635 min manat vəsaiti mənimsəməkdə ittiham olunur.

Keçirilən əməliyyat tədbirləri nəticəsində Sərkərov adına hərbi hissənin maliyyə şöbəsinin rəisi Fərahim Fazil oğlu da həbs edilib. Zabit 450 min manat vəsaiti mənimsəməkdə təqsirləndirilir.

MN-in Maliyyə və Büdcə İdarəsinin şöbə rəisi, polkovnik Rafail Xələfov barədə isə Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdarda mənimsəmə) maddəsi ilə həbs-qətimkan tədbiri seçilib. Onun 10 milyon manatı mənimsəməkdə ittiham edildiyi bildirilirdi.

İdarənin həbs edilən vəzifəliləri arasında Əlizadə Vüsal Ədalət oğlu da var. O, 1 milyon 800 min manat mənimsəməkdə ittiham olunur.

Xatırladaq ki, ötən günlərdə adıçəkilən nazirliyin Satınalmalar və Təchizat İdarəsinin sabiq rəisi polkovnik Şirvanov Mahir Məhərrəm oğluna da Hərbi Prokurorluğun istintaq idarəsi tərəfindən Cinayət Məcəlləsinin 179.4, 341.2.1 və digər maddələr ilə ittiham elan edilib və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Bundan iki gün öncə isə eyni idarənin başqa bir sabiq rəisi Məlikməmməd Qurbanovun barəsində həbs qətimkan tədbiri seçilib.

M.Şirvanov polkovnik M.Qurbanovdan əvvəl bu vəzifədə çalışıb.

Bütün bu məlumatlar fonunda general-mayor Nizami Məmmədovun həbsi sürpriz deyildi. Yeri gəlmişkən, Müdafiə Nazirliyindəki korrupsiya faktlarına görə istintaqın genişlənəcəyi və digər yüksək vəzifəli zabitlərin də məsuliyyətə cəlb olunacağı istisna olunmur. Aydın görünür ki, nazirlikdəki korrupsiya şəbəkəsinin tamamilə çökdürülməsinə qərar verilib. Bu isə yetərincə gözlənilən idi. Məsələ burasındadır ki, ölkənin məmur korpusunda son illər aparılan ”təmizləmələrin” ardından sıranın hüquq mühafizə sisteminə və orduya çatacağı gözlənilən idi. Bir sözlə, icra başçılarından, nazirlərdən, nazir müavinlərindən, digər müxtəlif vəzifəli şəxslərdən sonra həbs növbəsi generallara çatıb.

Əslində bunun siqnalları bir müddətdir ki, verilmişdi. Belə ki, son zamanlarda Azərbaycanda müxtəlif sahələr üzrə çoxsaylı general postundan kənarlaşdırılmışdı: ləğv edilən MTN üzrə Eldar Mahmudov - general-polkovnik, Mövlam Şıxəliyev - general-mayor, prokurorluq üzrə Zakir Qaralov - general-polkovnik (1-ci dərəcəli dövlət ədliyyə müşaviri), Rüstəm Usubov - general-leytenant (2-ci dərəcəli dövlət ədliyyə müşaviri), orduda Nəcməddin Sadıkov - general-polkovnik, Rövşən Əkbərov - general-leytenant, vergi sahəsində Fazil Məmmədov - general-polkovnik (1-ci dərəcəli dövlət vergi xidməti müşaviri) və s...

Bundan başqa, bəzi generallar isə həbsə atılıb. Onların arasında yuxarıda adı çəkilən və ötən il qandallanan Mövlam Şıxəliyevlə yanaşı, eyni nazirliyin (keçmiş MTN) yüksək vəzifəli generalları - 2021-ci ildə cinayət məsuliyyətinə cəlb olunan Hərbi Əks-Kəşfiyyat İdarəsinin sabiq rəisi general-mayor Nizami Şirinov (mühakiməsi davam edir), Antiterror Mərkəzinin sabiq rəisi Elçin Quliyev (2017-ci ilin noyabrında məhkəmənin hökmü ilə 10 il 6 ay müddətinə azadlıqdan məhrum edilib) də var.

2000-ci ildən 2017-ci ilədək Naxçıvanın daxili işlər naziri olmuş general-leytenant Əhməd Əhmədov isə 2015-2017-ci illərdə, cəmi 2 il ərzində nazirliyə 5 milyon manatdan çox zərər vurmaqda, vətəndaşlardan isə 9 milyon manatdan çox rüşvət almaqda təqsirli bilinərək ötən il həbs olunub. Məhkəmə onu 11 il müddətinə azadlıqdan məhrum edib.

Ötən il, həmçinin, Azərbaycan Silahlı Qüvvələrinin sabiq birlik komandiri, general-leytenant Rövşən Əkbərov həbs olunub. Rəsmi məlumata əsasən, o, 2001-ci il mayın 31-dən iyunun 1-nə keçən gecə Kiyev şəhəri, Deqtyaryov küçəsi 7 ünvanda yerləşən “Sikora” kafesində yeyib-içdikdən sonra, saat 04 radələrində həmin kafenin yaxınlığında Elçin Əliyev ilə aralarında yaranmış cüzi münaqişə səbəbindən xuliqanlıq niyyəti ilə sonuncunun ürək nahiyəsinə kəsici-deşici predmetlə xəsarət yetirməkdə təqsirləndirilib. Nəticədə Bakı Hərbi Məhkəməsinin hökmü ilə 10 il müddətinə azadlıqdan məhrum edilib.

Qısası, son bir neçə ildə Azərbaycanda xeyli general ya vəzifəsini ya da həm vəzifəsini, həm də azadlığını itirib. Müdafiə Nazirliyindəki həbslər məmur korpusundakı ”təmizləmələrin” generalitetə sıçradığının və prosesin bundan sonra da davam edəcəyini düşünməyə əsas verir.

***Toğrul Əliyev***

# Ermənistan masada da tərkisilah edilir: Sülh sazişi imzalanacaq



***Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycanla sülh sazişinin imzalanacağını bəyan edib. Bunu Nikol Paşinyan "Ermənistanın diplomatiya günü"nə həsr olunmuş tədbirdə deyib. "Gündəlikdə regional kommunikasiyaların açılması, Ermənistan-Azərbaycan sərhədinin demarkasiyası, həmçinin Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanması məsələləri var", - Baş nazir vurğulayıb.***

Bundan əlavə, Nikol Paşinyan Arazdəyən-Sədərək-Culfa-Ordubad-Meğri-Horadiz dəmir yolunun (Zəngəzur dəhlizi) Ermənistan hissəsində çöl işlərinə başlandığını da açıqlayıb. "Ümid edirəm ki, buna paralel olaraq biz 2021-ci ildə Soçi və Brüsseldə üçtərəfli görüşlər zamanı əldə edilmiş razılaşmaları de-yure təsbit edəcəyik", - deyə o bildirib. N.Paşinyan onu da əlavə edib ki, Ermənistan Zəngəzur dəhlizindən keçəcək avtomobil yolları üçün də mümkün marşrutlar, o cümlədən yeni yolların tikintisi üzərində işləyir. "Bizim bu marşrutların Şimal-Cənub nəqliyyat dəhlizi layihəsi ilə inteqrasiyası məsələsini müzakirə etməyimiz də vacibdir", - Paşinyan bildirib.

Diqqətçəkən məqamlardan biri də odur ki, Ukraynada müharibə başlayandan bəri ermənistan tərəfi artıq sərt üslübdan geri çəkilib. Belə demək mümkündürsə, sanki qorxudan sığınacağa çəkiliblər. Bir müddət öncəyə qədər revanşdan danışıb sərt bəyanatlar verən Köçəryan və Sarkisyanın səsi, ümumiyyətlə, gəlmir.

Maraqlıdır, bir neçə gün öncəyə qədər Qarabağda təxribatlarını artıran, imzalanan razılaşmaların tələblərini pozan ermənistan rəhbərliyinin qəflətən sülh danışıqlarını gündəmə gətirməsi nə ilə bağlıdır? Bu arada, Paşinyan Zəngəzur dəhlizinin tikintisinə başlandığını da elan etdi. Təbii ki, bunun arxasında hansı narahatlıq var.

Politoloq Qabil Hüseynli Ermənistanın Baş naziri Nikol Paşinyanın Azərbaycanla sülh sazişinin imzalanacağına dair bəyanatına münasibət bildirərkən deyib ki, mövcud situasiya onları belə bir mövqedən çıxış etməyə məcbur edir: "Azərbaycan həmişə bəyan edib ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıdıqdan sonra sülh danışıqlarına başlaya bilər. Onlar isə bunu demir, əksinə olaraq üçüncü bir qüvvəni - gah Rusiya, gah da ATƏT-in "gəbərmiş" Minsk qrupu tərəfindən Qarabağın dağlıq hissəsindəki separatçıların statusu barədə məsələləri qaldırmaqda davam edir".

Q.Hüseynli bildirib ki, Ermənistanın baş naziri tez-tez Azərbaycanla münasibətlərin inkişafından danışsa da, praktiki addımlar atmaqdan çəkinir: "Ermənistanın baş naziri Nikol Paşinyan həm sülh bağlanması, həm sərhədlərin delimitasiyası, həm də yolların, eləcə də kommunikasiya vasitələrinin açılması istiqamətində tez-tez fikirlər səsləndirir. Amma sanki oyun oynayırmış kimi, praktiki addımlar atmaqda tələsmir. Onun dünənki çıxışı da Rusiyanın Ukrayna ilə olan müharibəsində Rusiyanın xeyrinə olmayan və bütün dünyada pislənən vəziyyətin yaranması ilə bağlıdır. O bilir ki, əgər Rusiya öz mövqelərini itirirsə, bu, Ermənistan üçün ciddi problemlərə çevrilə bilər. Ona görə də sözügedən məsələni ön plana çəkir".

"Azərbaycan səmimi sülh istəyir, başda ölkə prezidenti olmaqla, biz müharibə istəmirik. Amma onlar da sülh üçün üzərinə düşən şərtləri yerinə yetirməlidir. Düşünürəm ki, o, hiylələr bir manevr edir, yəni sadəcə ümumi söz xatirinə, ictimai rəy yaratmaq naminə çıxışlar edir. Amma sülh bağlanmalıdır, bağlanacaq da. Bu prosesi sürətləndirmək, həm də Azərbaycanın 44 günlük müharibədəki qələbəsini nəzərə almaq lazımdır. Azərbaycan tərəfi onsuz da öz ərazi bütövlüyünü bərpa edib, sülh prosesini də eynilə başa çatdıracaq", - siyasi şərhçi əlavə edib.

Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə isə bizimlə söhbətində bildirib ki, Ermənistan Baş naziri Nikol Paşinyan "hökumət saatı" adlanan çıxışında Azərbaycanla sülh sazişinin bağlanmasına hazır olduqlarını qeyd edib. Onun sözlərinə görə, Rusiyanın izolyasiya olunması və Ukraynada hərbi uğursuzluğu N. Paşinyanın sülh müqaviləsini ortaya atmasına gətirib çıxarıb:

"Amma, prezident İlham Əliyev müharibədən dərhal sonra sülh müqaviləsinin bağlanması üçün Ermənistana dəfələrlə təkliflər və mesajlar verib. Bu, Azərbaycanın regionda aparıcı ölkə və sülhün yanında olduğunu göstərir. N.Paşinyan ilk növbədə 10 noyabr və sonrakı danışıqlarda əldə olunan razılaşmalara əməl etməlidir ki, sülh müqaviləsi bağlansın. Ermənistan tərəfi sülh deyə bilər. Amma, hansı təkliflər əsasında bu sülh müqaviləsində maraqlıdır. İlk növbədə Azərbaycanın konusturuktiv təkliflərini qəbul etməlidir. Azərbaycanın təklifləri beynəlxalq hüquqa söykənir. Ermənistana ərazi iddiaları irəli sürmür. Görünür, Nikol Paşinyan sülhdə maraqlıdır.Onun ilk növbədə Azərbaycanın ərazi bütövlüyünü tanımasını bəyan etməsi mütləqdir. Paşinyan sülh müqaviləsinin bağlanmasında maraqlıdırsa, bayramda Azərbaycanın sülh şərtlərini qəbul edibsə, qarşıdan gələn Novruz bayramında sülh üçün Azərbaycan xalqını və Prezidentini təbrik etməlidir".

Deputat Tahir Kərimli isə bildirib ki, Paşinyanın sülhə meyilli olması ortadadır: "Birincisi, bu, onunla bağlıdır ki, Paşinyan Azərbaycan Prezidentinin bu istiqamətdə çıxışlarına etiraz etməyib. İkincisi, hər halda Azərbaycan-Rusiya-Ermənistan arasında razılıq əsas götürülüb. Bu razılığın da nəticəsi, şübhəsiz ki, sülh müqaviləsinin imzalanmasına gətirib çıxarar".

Deputatın sözlərinə görə, Paşinyan çox ciddi müqavimətlə üzləşir, içəridə çox ciddi müxalifət var, onu istəməyən qüvvələr çoxdur: "Şübhəsiz ki, onlar tərəfindən Paşinyana ciddi təzyiqlər var. Hesab edirəm ki, Paşinyan o təzyiqlərdən ən böyüyünü atlatdı. Belə ki, parlamentdə ona ən yaxın olan şəxsin prezident seçilməyinə nail oldu. Formal da olsa prezident olan şəxsin Baş nazirə yaxın olması, Paşinyanın bir qədər də iradəsi üzrə hərəkətləri davam etdirməsinə imkan verəcəkdir".

T.Kərimli onu da bildirib ki, əslində Ermənistan-Türkiyə, Ermənistan-Azərbaycan və çox tərəfli münasibətlər də Ermənistana çıxış yolu qoymur: "Ermənistan tərəfinin ölkənin gələcəyini təmin etməkdən ötrü sülh sazişi imzalamağa ehtiyacı var. Doğrudur, tezliklə sülh sazişinin imzalanmasına inanmıram. Amma sülh sazişinin imzalanacağı realdır, Paşinyan da buna meyillidir".

***Ağarza Elçinoğlu***

## Əli Əsədov Rasizadənin imzaladığı qərarı ləğv etdi



***Baş nazir Əli Əsədov subbakalavrların topladıqları kreditlərin uyğun ixtisaslar üzrə ali təhsil müəssisələrində nəzərə alınması ilə bağlı qaydanı ləğv edib.***

"Unikal" xəbər verir ki, Ə.Əsədov bununla bağlı müvafiq qərar imzalayıb. Belə ki, "Orta ixtisas təhsili pilləsini yüksək nəticələrlə başa vuran məzunların (subbakalavrların) topladıqları kreditlərin uyğun ixtisaslar üzrə ali təhsil müəssisələrində nəzərə alınması haqqında" Nazirlər Kabinetinin 2009-cu il 22 dekabr tarixli 195 nömrəli qərarı ləğv edilib.

Xatırladaq ki, əvvəlki qərarla orta ixtisas təhsili pilləsini fərqlənmə diplomu ilə bitirmiş və "subbakalavr" ixtisas dərəcəsi almış məzunların ayrı-ayrı fənlərdən topladıqları kreditlər tələbənin müraciəti və müvafiq sənədlər (fərqlənmə diplomu və onun əlavəsi) təqdim edildikdən sonra baxılaraq, bakalavr səviyyəsinin uyğun ixtisaslarında ali təhsil müəssisəsi tərəfindən nəzərə alınırdı.

## Çavuşoğlu NATO-nun toplantısında iştirak edəcək

***Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu NATO ölkələri XİN başçılarının fövqəladə toplantısında iştirak edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə Xarici İşlər Nazirliyi məlumat yayıb.

Bildirilib ki, iclasda Ukrayna kontekstində baş verən aktual proseslərin müzakirəsi planlaşdırılır.

Türkiyənin XİN başçısı iclas əsnasında ikitərəfli görüşlər də gerçəkləşdirəcək.

## Britaniya səfiri Füzuliyə getdi

***Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp Füzuli rayonunun Horadiz şəhərinə gedib.***

"Unikal" xəbər verir ki, bu barədə səfir Ceyms Şarp tviterdə yazıb. "Biz minalar sahəsində ANAMA ilə əməkdaşlığımıza davam edirik. Bu gün Horadizdə ərazilərin minalardan təmizlənməsi üçün həm təlim, həmçinin də texniki dəstək göstərən Britaniya mütəxəssisləri ilə görüşdüm".

## Bakı və Düşənbə şəhərləri qardaşlaşacaq

***Azərbaycanla Tacikistanın paytaxt şəhərləri Bakı və Düşənbə qardaşlaşacaq.***

"Unikal" xəbər verir ki, bu barədə Tacikistan Ali Məclisi Milli Məclisinin sədri Rüstəm Emoməli martın 3-də Azərbaycan Prezidenti İlham Əliyevin qəbulunda olarkən deyib.

Rüstəm Emoməli iki ölkə parlamentləri arasında əməkdaşlıq haqqında sazişin, həmçinin Bakı və Düşənbənin qardaşlaşması barədə sənədin imzalanacağını qeyd edərək bunları dostluq əlaqələrinin yaxşı göstəricisi kimi qiymətləndirib.

# İlham Əliyev Türkiyə ilə sazişi təsdiqlədi



***Azərbaycan Hökuməti ilə Türkiyə Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında saziş təsdiqlənib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev qanunu imzalayıb.

Sənədə əsasən, 2021-ci il sentyabrın 28-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş təsdiq edilib.

# Prezident deputata vəzifə verdi

***Əsgər Əyyub oğlu Ələkbərov "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri vəzifəsindən azad edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

Prezidentin imzaladığı digər sərəncamla Şahin Kamil oğlu Seyidzadə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin edilib.

Qeyd edək ki, Şahin Seyidzadə Milli Məclisin deputatıdır.



# Rusiya və Ukrayna müvəqqəti atəşkəslə bağlı razılığa gəldi

***Rusiya və Ukrayna humanitar dəhlizlərin təşkili üçün müvəqqəti atəşkəslə bağlı razılığa gəlib.***

"Unikal" xəbər verir ki, bunu Ukrayna Prezident ofisi rəhbərinin müşaviri Mixail Podolyak deyib:

"Tərəflər müvəqqəti atəşkəslə humanitar dəhlizlərin birgə təmin edilməsinə dair razılığa gəliblər".

## ELAN

**KÜRDƏMİR RAYON AQRAR İSLAHAT KOMİSSİYASININ 24.07.2004-ci il tarixli 01-saylı QƏRARI İLƏ HƏMİDOV İLHAM OKTAY OĞLUNUN ADINA VERİLMİŞ AN056362 - NÖMRƏLİ TORPAQ SAHƏSİNİN PLAN-ÖLÇÜSÜ İTDİYİ ÜÇÜN ETİBARSIZ HESAB EDİLİR.**

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500



# İş və istirahət günlərinin yerləri DƏYİŞDİRİLDİ

***Nazirlər Kabineti "İş və istirahət günlərinin yerlərinin dəyişdirilməsi haqqında" qərar verib.***

"Unikal" xəbər verir, qərara əsasən, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2022-ci il 7 mart iş günü ilə 5 mart istirahət gününün yerləri dəyişdirilib.

# Prezident Rüstəm Emomalini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin sədri Rüstəm Emomalini qəbul edib.***



"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin sədri Rüstəm Emomalinin səfərinin səmərəli keçəcəyinə və ölkələrimiz arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.

Azərbaycanın və Tacikistanın bir çox istiqamətlərdə sıx qarşılıqlı fəaliyyət həyata keçirdiyini vurğulayan dövlətimizin başçısı özünün Tacikistan Prezidenti Emoməli Rəhmonla təmaslarının və qarşılıqlı dəstəyin önəmini qeyd etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında parlamentlərarası əməkdaşlığın da uğurla inkişaf etdiyini bildirdi, iqtisadi, nəqliyyat və investisiya qoyuluşu sahələrində də yaxşı perspektivlərin mövcud olduğunu vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin sədri Rüstəm Emoməli, ilk növbədə, Tacikistan Prezidenti Emoməli Rəhmonun salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Rüstəm Emoməli parlamentlərimiz arasında əməkdaşlıq haqqında sazişin, həmçinin Bakı və Düşənbənin qardaşlaşması barədə sənədin imzalanacağını qeyd edərək, bunları dostluq əlaqələrimizin yaxşı göstəricisi kimi qiymətləndirdi.

Prezident İlham Əliyev Tacikistanın dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Emoməli Rəhmona çatdırmağı xahiş etdi.

# Ukraynadan NATO-ya çağırış: "Səmanı bağlayın!"

***Ukraynanın xarici işlər naziri Dmitri Kuleba ölkəsinin tərəfdaşlarına çağırış edib. O, tərəfdaşları Ukraynanın hava məkanını bağlamağa çağırıb.***

- Biz NATO-dakı partnyorlarımıza çox aydın və sakit şəkildə deyirik ki, siz Rusiya ilə birbaşa qarşıdurmadan necə qaçınacağınızı istədiyiniz qədər düşünə bilərsiniz. Amma indi onu dayandırmağa yardım etməsəniz, birbaşa toqquşma qaçılmaz olacaq, çünki siz növbəti hədəf olacaqsınız, - Kuleba deyib

Bu kontekstdə o qeyd edib ki, Rusiyanın NATO ölkələrinə hücum etməyə cəsarət etməyəcəyinə inananlar xatırlamalıdırlar ki, onlar da Kremlin Ukrayna ilə birbaşa müharibəyə başlamaq planlarına inanmırdılar.

- Və hamı yanıldı. Ona görə də biz dərhal hərəkətə keçməliyik. Səmanı bağlaya bilməzsiniz. Ancaq Ukrayna Silahlı Qüvvələrinin döyüş təyyarələri və zenit müdafiə sistemlərinin təchizatını təmin edə bilərsiniz. Hazırda bütün ssenarilər üzərində işlənilir. Amma hamı başa düşməlidir və biz bunu tərəfdaşlarımıza açıq şəkildə deyirik ki, "Etdiyiniz hər şeyə görə sizə minnətdarıq... Amma indi konkret təhlükə var ki, vətəndaşlarımız havadan öldürülməyə davam edəcək... Ona görə də Ukraynanın hava hücumundan müdafiəsini gücləndirmək üçün radikal addımlar atmasanız, o zaman ölən vətəndaşlarımızın qanı sizin də əlinizdə olacaq. Sizin təmkinliliyiniz və növbəti addımları atmaq istəməməyiniz - bütün bunlar Rusiyaya cəzasız adam öldürməyə davam etmək imkanı verir", - XİN rəhbəri vurğulayıb.



# Azərbaycana 540 nəfərin keçidi təmin edilib - RƏSMİ

***Koronavirus (COVID-19) infeksiyasının yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə ölkə üzrə vətəndaşların quru sərhəd keçidinə tətbiq edilən müvəqqəti məhdudiyyətlər səbəbindən, Rusiya Federasiyasının Azərbaycan Respublikası ilə dövlət sərhədinin Dağıstan Respublikası ərazisindən yerüstü sərhəd yolu ilə Azərbaycana gəlmək üçün toplaşan vətəndaşlarımız və onların ailə üzvləri üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinin yanında Operativ Qərargahın müvafiq tapşırığına və pandemiya şərtlərinə uyğun olaraq 23 fevral-28 fevral 2022-ci il tarixlərində növbəti sərhəd buraxılışları təşkil edilib.***

Bu barədə "Unikal"-a Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib.



Sərhəd buraxılışlarının həyata keçirilməsi üçün Xarici İşlər Nazirliyi, Daxili İşlər Nazirliyi və Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarından ibarət işçi heyət Rusiya Federasiyasının Dağıstan Respublikasına ezam olunub. İşçi heyətin üzvləri sərhədi keçmək istəyən Azərbaycan Respublikası vətəndaşları və onların ailə üzvlərini qeydiyyata alıb, onlara zəruri konsulluq yardımını göstərib.

Rusiyanın yerli qurumları ilə əlaqələndirilmiş fəaliyyət nəticəsində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən müəyyən olunmuş gündəlik kvotaya uyğun olaraq, qeydiyyata alınmış 540 nəfərin 23 fevral - 28 fevral 2022-ci il tarixlərində (6 sərhəd buraxılışı) Rusiya Federasiyası ilə Azərbaycan Respublikasının "Yaraq Qazmalar - Samur" dövlət sərhəd-keçid buraxılış məntəqəsindən Azərbaycan Respublikasına qrup halında keçidi təmin edilib.

# Prezident məmurlarla sahibkarlara xəbərdarlıq etdi

## İlham Əliyev: "İcra başçıları bu məsələyə çox ciddi yanaşmalıdır"



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Şahin Seyidzadəni "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edib.***

"Unikal" xəbər verir ki, dövlət başçısı qəbulda çıxış edib:

-Bu gün siz "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin idarə heyətinin sədri təyin edilirsiniz. Sizə böyük etimad göstərilir. Əminəm ki, siz bu etimadı doğruldacaqsınız, üzərinizə düşən məsuliyyəti dərk edirsiniz və göstərilən etimadı öz işinizlə doğruldacaqsınız.

İçərişəhər bizim milli sərvətimizdir, dünya memarlıq tarixinin möhtəşəm abidəsidir, Azərbaycan xalqının istedadının bariz nümunəsidir. Əsrlər boyu Azərbaycan xalqı İçərişəhəri, onun içində olan tarixi abidələri qoruyub və bundan sonra da əsrlər boyu qoruyacaq. İçərişəhərin hər bir küçəsi, hər bir tini, hər bir daşı qiymətlidir, tarixi əhəmiyyət kəsb edir. Qala divarları, Qız qalası, Şirvanşahlar sarayı, məscidlər, karvansaralar, muzeylər, digər tarixi abidələr qürur mənbəyimizdir. Dünyada İçərişəhərə bənzəri olan ikinci yer yoxdur. Düzdür, dünyanın bir neçə ölkəsində köhnə şəhər məhəllələri vardır, onların bir neçəsində mən olmuşam. Amma tam əminliklə deyə bilərəm ki, İçərişəhər kimi ikinci məkan, ikinci yer dünyada yoxdur. Bu, bizim tarixi irsimizdir, biz İçərişəhəri göz bəbəyimiz kimi qorumalıyıq və əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz.

İçərişəhər Bakı şəhərinin özəyidir. Bakı şəhərini İçərişəhərsiz təsəvvür etmək mümkün deyil. Ancaq inzibati bölgü nöqteyi-nəzərdən mənim Sərəncamımla bir neçə il bundan əvvəl İçərişəhərdə xüsusi idarəetmə mexanizmi yaradılmışdır, idarə yaradılmışdır. İnzibati nöqteyi-nəzərdən İçərişəhər müstəqil inzibati vahiddir, ancaq Bakı şəhərinin bir hissəsidir. Bakı şəhərinin gözəlliyi bu gün heç kimə sirr deyil və Bakıya gələn hər bir xarici qonaq Bakıya heyran olur. Əminəm ki, hər gələn, xüsusilə ilk dəfə Bakıya gələn xarici qonaq mütləq İçərişəhərə baş çəkir, İçərişəhərlə, orada yerləşən abidələrlə tanış olur və bir daha görür ki, Azərbaycan xalqı böyük xalqdır, qədim xalqdır, istedadlı xalqdır. Ancaq böyük və istedadlı xalq belə möhtəşəm, dünya əhəmiyyətli abidə yarada bilər. Bir daha demək istəyirəm ki, İçərişəhərin hər bir hissəsi, hər bir guşəsi əhəmiyyətlidir və eyni zamanda, İçərişəhər sadəcə olaraq açıq səma altında muzey deyil. İçərişəhərdə insanlar yaşayır, əsrlərboyu yaşayıb. Hamımız yaxşı bilirik ki, Bakının təməli məhz İçərişəhərdə qoyulubdur və qədim dövrlərdə Qala divarlarının kənarında heç bir tikili yox idi. Bu gün də İçərişəhərdə insanlar yaşayır və onların rahatlığı üçün əlbəttə ki, böyük işlər görülür və görüləcəkdir. Eyni zamanda, bir daha demək istəyirəm ki, İçərişəhər həm Bakı sakinləri, həm bütün Azərbaycan vətəndaşları, xarici qonaqlar üçün çox cəlbedici yerdir və məhz buna görə İçərişəhərə hər gün böyük axın var. Bütün bunları nəzərə alaraq işlər elə qurulmalıdır ki, orada yaşayan insanlar əziyyət çəkməsinlər, eyni zamanda, turistlər, qonaqlar üçün də lazımi şərait yaradılsın. Son illər ərzində bu istiqamətdə böyük işlər görülübdür. İçərişəhərin tarixi simasının qorunması şəxsən mənim nəzarətimdədir və əminəm ki, sizin rəhbərliyinizlə İdarə qarşıda duran yeni vəzifələri uğurla icra edəcək. İçərişəhər əbədi yaşayacaq və yaşamalıdır. Biz də, bizdən sonra gələn nəsillər də haqlı olaraq İçərişəhərlə fəxr edəcəklər.

Bakı şəhərinin bütövlükdə memarlıq ansamblı unikaldır. Həm coğrafi yerləşmə, həm Xəzər dənizinin kənarında yerləşməsi, eyni zamanda, qədim abidələr, tarixi abidələr, müasir memarlıq nümunələri Bakıda xüsusi bir aura yaradır. Əminəm, hər gələn qonaq görür ki, Bakıda qədimliklə müasirlik arasında vəhdət var. Bakı inkişaf edir, böyüyür və son vaxtlar Bakının memarlıq məsələlərinə xüsusi diqqət göstərilir. Vaxt var idi ki, Bakıda inşa edilən eybəcər, yöndəmsiz binalar göbələk kimi üzə çıxırdı. Heç bir memarlıq normalarına uyğun gəlməyən, heç bir memarlıq əmsallarına cavab verməyən bu yöndəmsiz binalar Bakının bəzi yerlərinin simasını əfsuslar olsun ki, mənfiyə doğru dəyişmişdir. Ancaq son vaxtlar bu məsələyə ciddi nəzarət var. Dövlət tərəfindən bütün bu məsələlər tənzimlənir və icazəsiz, qanunsuz tikililərin sayı xeyli azalıbdır. Amma hələ də belə hallar var və mən bütün qurumları, dövlət qurumlarını və sahibkarları xəbərdar etmək istəyirəm ki, buna yol verilməyəcək. Xüsusilə sahibkarlara müraciət edirəm, qazanc dalınca getmək o demək deyil ki, biz unikal şəhərimizi eybəcər binalarla korlayaq. Biz buna imkan verməyəcəyik, qanunsuz tikililərə son qoyulmalıdır. Bu məsələyə nəzarət edən bütün orqanlar bu işlərə çox ciddi yanaşmalıdır - Bakı Şəhəri İcra Hakimiyyəti, Bakı şəhərində yerləşən rayonların icra başçıları. Əminəm ki, bundan sonra Bakı vahid memarlıq konsepsiya əsasında inkişaf edəcək.

Ancaq yenə də deyirəm, son vaxtlar görülmüş tədbirlər nəticəsində Bakının memarlıq ansamblı xeyli sağlamlaşdı. Bu gün bir daha demək istəyirəm, Bakı unikal şəhərdir, dünyanın ən gözəl şəhərlərindən biridir. Bunu hər kəs deyir, mənim aləmimdə Bakı dünyanın ən gözəl şəhəridir. Hamımız Bakını sevirik, Bakını qorumalıyıq və yenə də deyirəm, şəhər inkişaf etməlidir, ancaq planlı şəkildə. Bundan sonra da müasir memarlıq Bakının qədimliyini, o qədim tarixi simasını pozmamalıdır. Bu iki önəmli amil bir-birinə ziddiyyət təşkil etməməlidir, əksinə, qədimlik və müasirlik - Bakının xüsusi aurası qorunmalıdır və əminəm ki, biz buna nail olacağıq.

Ona görə Bakının inkişafı və idarəetmə prinsipləri başqa şəhərlərdən fərqlənir. Qeyd etdiyim kimi, mənim Sərəncamımla vaxtilə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Bulvar İdarəsi yaradılmışdır. Bulvar da Bakının bir hissəsidir, ancaq ayrıca bir inzibati vahididir. Nə üçün? Çünki bulvar da bizim milli sərvətimizdir və indi Azərbaycan vətəndaşları, xüsusilə gənclər yəqin ki, bunu xatırlamır və ümumiyyətlə, görməyiblər ki, 10-15 il bundan əvvəl bulvarın vəziyyəti necə idi - qaranlıq, səliqəsizlik və heç bir şəhərə şəraf gətirməyən mənzərə. Biz indi bulvarın uzunluğunu 5 dəfə artırmışıq və bulvarın hər bir yerində səliqə-sahman var. Nə üçün? Çünki xüsusi idarə yaradılıb, o idarənin işi ancaq bulvara qulluq etmək, təmizliyi və bulvarın canlı orqanizm olmasını təmin etməkdir. Yəni, Bakı şəhərində mənim sərəncamlarımla yaradılmış xüsusi bir idarəetmə mexanizmi vardır, - Bakı şəhəri, İçərişəhər və Bulvar, - üç qurum. Əlbəttə, bu üç qurum arasında işgüzar əlaqələr təbii ki, vardır, olmalıdır, güclənməlidir. Çünki İçərişəhərdə olan insan - ya yerli vətəndaş, ya qonaq o qədim məkandan çıxıb bulvara keçməklə tam yeni bir Bakı görür, müasir bir Bakı görür. Bax, bu amillər çox önəmlidir. Ona görə siz də təbii ki, öz fəaliyyətinizdə bu iki qurumla sıx əlaqədə olmalısınız, onlar da sizinlə. Çünki Bakı, onun bütün yerləri, hər bir guşəsi bizim üçün doğmadır, əzizdir. Əminəm ki, Bakı bundan sonra daha da gözəl şəhər olacaq. Bakıda yeni inşa edilən binalar - istər yaşayış binaları, istər ictimai binalar, ticarət obyektləri, iaşə obyektləri ən yüksək memarlıq zövqünə uyğun olmalıdır. Bu işlərə dövlət qurumları nəzarət etməlidir ki, bundan sonra Bakı ancaq gözəlləşsin.

Bir daha demək istəyirəm ki, sizin üzərinizə böyük vəzifə düşür. Bir daha demək istəyirəm ki, İçərişəhər bizim milli sərvətimizdir, bu sərvəti biz qorumalıyıq və qoruyacağıq. Sizə işinizdə uğurlar arzulayıram.

*İnformasiya şöbəsi*



# Baş nazirdən Təhsilin İnkişafı Fondu ilə bağlı qərar

***Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı genişləndirilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, siyahıya Təhsilin İnkişafı Fondu da əlavə edilib.

Qeyd edək ki, Təhsilin İnkişafı Fondu ötən ilin iyulun 14-də Prezident İlham Əliyevin fərmanı ilə yaradılıb.

# "Fransalılar tez-tez xoruzlanırlar"- Lavrov

***"Hazırda nüvə müharibəsi haqqında söhbətlər gedir. Bu barədə danışılanlara və danışanlara fikir verin. Əvvəl cənab Stoltenberq özünü Qərbdəki ən radikal qüvvələrə bəyəndirmək üçün deyib ki, NATO istədiyini edə bilər, həmçinin nüvə silahını Şərqi Avropada yerləşdirə bilər. Gəlin ondan başlayaq ki, NATO bu barədə qərar verə bilməz, onun nüvə silahı yoxdur. O, amerikalılardadır. Amma onun işarəsi nümunədir".***



"Unikal" xəbər verir ki, bu fikirləri Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib: "Daha sonra cənab Zelenski də bildirib ki, qeyri-nüvə ölkəsi öhdəliyindən imtina edə bilərik. Fransalı həmkarım Jan İv Lö Drianın nə söylədiklərinə baxmağı unutmayın. Fransalıların simvolu var - xoruz. Bax onlar tez-tez xoruzlanırlar. Deyib ki, "Putin bilməlidir ki, Fransanın da nüvə silahı var". Bütün bunları biz demirik, onlar deyir".

# Gürcüstan Aİ-yə üzvlük sənədini imzaladı

***Gürcüstanın Avropa İttifaqına üzvlüyə namizəd statusu almaqla bağlı rəsmi müraciət imzalanıb.***

Sənədə ölkənin baş naziri İrakli Qaribaşili imza atıb. Baş nazir ölkə vətəndaşlarına müraciətində bu günü Gürcüstan üçün tarixi gün adlandırıb. Qaribaşvili qeyd edib ki, müraciət Gürcüstanın Avropaya inteqrasiyası yolunda növbəti önəmli addımdır.

Xatırladaq ki, Gürcütan Aİ-yə üzv olmaq üçün müraciəti 2024-cü ildə etməyi planlaşdırırdı. Ukraynada baş verən hadisələr fonunda qonşu ölkə ötən gün müraciəti vaxtından tez təqdim etməklə bağlı qərar verib.



## MEDİA-da yayım şirkətlərinin problemləri müzakirə olundu

***Mart ayının 3-də Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində çap mediası məhsullarının yayım şirkətlərinin rəhbərləri ilə görüş keçirilib.***

MEDİA-dan "Unikal"a verilən xəbərə görə, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov qeyd edib ki, görüşün əsas məqsədi çap mediası məhsullarının yayım sahəsindəki mövcud vəziyyətinin təhlili, yayım prosesinin səmərəliliyinin artırılması və bu sahəyə dair mövcud normativ hüquqi aktların müddəalarının şərh edilməsidir.

Görüşdə Bakı şəhəri ilə yanaşı rayonlarda da yayım işinin təkmilləşdirilməsinə ehtiyac olduğu vurğulanıb. Sonda görüş iştirakçılarının çap mediası məhsullarının abunə və satışının daha səmərəli təşkili istiqamətində təklifləri dinlənilib, qarşılıqlı fikir mübadiləsi aparılıb.

## Rüstəm Emoməli Fəxri xiyabanı ziyarət edib

***Ölkəmizdə səfərdə olan Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin sədri Rüstəm Emoməlinin rəhbərlik etdiyi nümayəndə heyəti martın 3-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər çiçəklər düzülüb.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a verilən məlumata görə, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər qoyulub.

Nümayəndə heyətinin üzvləri, həmçinin Şəhidlər xiyabanını ziyarət edərək, ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Sonda Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Qeyd edək ki, ziyarət zamanı nümayəndə heyətini Milli Məclis sədrinin müavini Adil Əliyev və Tacikistan ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Aydın Mirzəzadə müşayiət ediblər.

***Hüseyn***

# "Müharibə Rusiyanın tam dağılmasına qədər gedəcək"

## Sərdar Cəlaloğlu: "Ukrayna bu müharibədə bir ay davam gətirsə, Rusiya çökəcək"

***Bir həftədən çoxdur ki, Rusiya-Ukrayna müharibəsi davam edir. Ukraynaya hücuma görə Qərb Rusiyaya sanksiyalar tətbiq edib. Bu sanksiyaların qarşılığında Rusiya müharibəni dayandıracaqmı? Proseslər hansı istiqamətdə davam edəcək? Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu "Unikal"a müsahibəsində bu və ya digər sualları cavablandırıb.***

-Rusiyanın müharibəni davam etdirməsi Qərbin maraqlarına uyğundur. Davam edən müharibənin üzərinə sanksiyalar gələndə Rusiya dövlət kimi ikiqat çökür. Rusiya dərhal bu müharibəni dayandırsa, sanksiyalar götürülsə, yenidən öz inkişafını təmin edə bilər. Ona görə də Qərb Rusiyanın bu müharibəni dayandırmasında maraqlı deyil. Bu baxımdan Ukraynaya hərbi, siyasi, iqtisadi və mənəvi dəstək verirlər. Digər tərəfdən isə heç kəs Rusiyanın bu müharibəni dayandırması ilə bağlı qarşısına ciddi bir şərt qoymur. Hadisələrin gedişi onun öz şıltaqlığına buraxılıb. Özü bilər, nə edirsə etsin. Burada məqsəd Rusiyanı çökdürməkdir. Rusiya Prezidenti Vladimir Putin olduqca avantürist liderdir. Vaxtilə Adolf Hitlerin apardığı siyasəti davam etdirir və yanlış bir yoldadır. Beynəlxalq hüququn bütün normalarını pozub. Onun beynəlxalq məhkəməyə verilməsi ilə bağlı məsələ gündəmə gəlib. Putin Hitlerin aqibətini təkrarlayacaq. Bunun başqa variantı yoxdur.



***-Necə düşünürsüz, müharibə bundan sonra nə qədər davam edəcək?***

-Əvvəl elə bilirdim ki, Rusiyanın rəhbərliyində ağlı başında olan adamlar var. Ona görə düşünürdüm ki, nə qədər məcbur etsələr də, Rusiya Ukraynaya hücum etməyəcək. Bu hücumu göründən sonra başa düşdüm ki, Rusiyanın rəhbərliyi elə Hitlerin rəhərliyi kimi tamamilə avantürist insanlardan ibarətdir. Hətta, Stalin bu qədər avantürist hərəkətlərə əl atmayıb. Yəni, kifayət qədər təmkinli, uzaqgörən, dövlətin maraqlarını, SSRİ-nin gücünü nəzərə alan bir şəxs olub. Amma Putin siyasi reallıqları, dünyada gedən prosesləri dərk etməyən, özündən razı bir insandır. Belə bir dövlətin özünün müharibəyə daxil edilməsinin özü ən böyük avantüriadır. Vladimir Putin bunu etdi və bununla da Rusiyanı bütövlükdə dünya ailəsindən qopardı, həm də Rusiyanı bir dövlət kimi həddindən artıq zəiflətdi. Rusiyanın gələcəyinin necə olacağı məlum deyil.

***-Rusiya-Ukrayna müharibəsi Üçüncü Dünya müharibəsinə səbəb ola bilərmi?***

-Əgər Rusiya-Ukrayna münaqişəsinə üçüncü tərəf rəsmən qoşulmasa, Üçüncü Dünya müharibəsi olmayacaq. İndi belə fikirlər var ki, Belarus qoşulmaq istəyir. Belarusun qoşulacağı təqdirdə, dünya müharibəsi qaçılmazdır. Hər hansı bir dövlət rəsmi şəkildə Rusiyanın yanında olduğunu bəyan edib qüvvə verməsə belə sözlə müttəfiq olduğunu elan etsə, dərhal dünya müharibəsi başlayacaq. Bu, iki dövlət arasında olan məsələdir. Üçüncü dövlət qoşulursa, o zaman Ukraynanın dostları onu müdafiə edəcək. Putin özü etiraf etdi ki, Rusiyanın NATO ilə müharibə etmək imkanı yoxdur. NATO Rusiyadan güclüdür. Rusiyanın yeganə əlacı nüvə silahına qalıb. Putin müharibənin üçüncü günü özünün axırıncı kartını açdı. Burada söhbət nüvə silahından gedir. Dünyada nüvə silahını kim necə gəldi ata bilməz. Rusiyanın bütün nüvə silahları ABŞ-ın nəzarəti altındadır. Rusiya nüvə silahından istifadə edəcəksə, ABŞ onu yerindəcə məhv edəcək. Bu vəziyyətdən çıxmağın yeganə bir yolu var ki, Rusiya elitası Putini hakimiyyətdən uzaqlaşdırsın, hakimiyyətə yeni rəhbər gəlsin. Putinin apardığı siyasətin üstündən xətt çəksin və Rusiya dünya nizamına qayıtsın. Bundan sonra sanksiyalar götürülsün, Rusiya əvvəlki kimi dünya ailəsi ilə birlikdə inkişaf etməyə başlasın. Əks-halda bu müharibə Rusiyanın tam dağılmasına qədər gedəcək.

***-Qərbin Rusiyaya tətbiq etdiyi sanksiyalar artıq özünü göstərir...***

-Sanksiyalardan bir gün sonra Rusiya rublu dəyərini 50 faiz itirib. Rusiyanın bir çox iş adamları, dövlət bankları milyardlarla pul itiriblər. Sanksiyalar aylarla, illərlə davam etdikcə, Rusiya xeyli vəsait itirəcək. Doğrudur, Rusiyada demokratik qüvvələr ayağa qalxır, amma bu kifayət etmir. Bir azdan aclıqla bağlı xalq da ayağa qalxacaq. Oradakı hadisələrə təsir edəcək faktor elitanın ayağa qalxmasıdır. Bu gün sanksiyalar elitanın Putinin üzərinə gəlməsi üçün əsas yaradır. Onlara qarşı sanksiyalar tətbiq olunur. Heç kəs Putinin bu cinayətkar hərəkətinə öz ailəsi ilə cavabdehlik daşımaq istəməz. Tezliklə Rusiyanın özündə hamı Putinin hakimiyyətdən uzaqlaşdırılması məsələsini dərk edəcək. Ola bilər ki, Vladimir Putin könüllü şəkildə hakimiyyətdən getsin.Putinin özünün girdiyi bu müharibədən çıxmaq şansı yoxdur, bunun üçün gərək başqa bir şəxs hakimiyyətə gəlsin, rusiyanın xarici siyasət konsepsiyasını hazırlasın və onun əsasında siyasət aparsın. Yalnız o halda demək olar ki, Rusiya siyasətini dəyişdirir. İndiki şərtlər daxilində Putin geriyə çəkilsə və ya irəli getsə də, məğlub olacaq. Yalnız üçüncü bir kənar şəxsin rəhbərliyi altında Rusiya yaranmış vəziyyətdən çıxa bilər.

***-Sanskiyalar ölkə iqtisadiyyatına ciddi təsir göstərir. Bunun fonunda Rusiyada aksiyaların olması gözlənilirmi?***

-Mütləq bu etirazlar olacaq. Çünki hələ Ukraynada həyatını itirən hərbçilərin meyitlərini götürmürlər. Demək olar ki, Ukraynada 10 minə yaxın Rusiya əsgəri ölüb. Meyitlər ölkəyə daxil olandan sonra insanlar yaxınlarının itkisinə etiraz edəcək. Həmçinin, Rusiya vətəndaşı demək olar heç bir yerə gedə bilmyəcək. Bank kartlarından istifadə edə bilmirlər. Rusiyaya nəhəng problemlər yaradırlar. Bunun yaradılması hazırda da davam edir. İnanmıram ki, Putin bu məsələdə axıra qədər dözə bilər. Ukrayna bu müharibədə bir ay davam gətirə bilsə, Rusiya çökəcək.

***-Bu müharibə Rusiyanın Cənubi Qafqazdakı mövqeyinə necə təsir göstərəcək?***

-Təbii ki, Rusiyanın bu müharibədə qalib gələcəyi təqdirdə bütün dünya uduzacaq. Rusiyanın məqsədi SSRİ-ni bərpa etməkdir. Amma Rusiya məğlub olandan sonra keçmiş SSRİ respublikaları real müstəqillik əldə edəcəklər. Rusiyanın məğlub olmasının tərəfdarıyıq. Rusiya hakimiyyəti nə bu ölkənin xalqını xoşbəxt edə bilib, nə də başqa xalqların xoşbəxt olmasına imkan verib.

***-Hər iki ölkədə - Rusiya və Ukraynada vətəndaşlarımız yaşayır, işləyir, təhsil alır və s. Bu müharibə həmin ölkələrdə yaşayan soydaşlarımıza da təsir edəcək...***

-Rusiyada yaşayan azərbaycanlılar bu münaqişəyə daxil olmalı deyillər. Amma Ukraynada yaşayan azərbaycanlılar öz vətənləri kimi Ukraynanı Rusiyanın işğalından qorumaq üçün vuruşmalıdırlar. Bunun başqa alternativi yoxdur. Bu dövlətə hücum var və onu qorumaq lazımdır. Sözsüz ki, müharibə Rusiya ilə iqtisadi əlaqələri olan bütün dövlətlərə mənfi təsir edəcək.

***Anar Kəlbiyev***

# Arif Əsgərovla bağlı şok iddia

## Haqqında yüz milyonlarla manatlıq korrupsiya dosyesi olduğu deyilən sabiq nazir müavini ölkəni tərk edib?

***Azərbaycanda uzun müddət vəzifədə olan, hər zaman haqqında çıxan xəbərlərlə, verdiyi açıqlamalarla gündəm yaradan məmurlar səssizliyi pozmurlar. Bunun bir çox səbəbləri var; başlıcası isə həmin eks-vəzifəlilərin "unudulmaq" istəmələridir. Özləri ictimaiyyətin yadlarından çıxarsa, bir zamanlar qol qoyduqları korrupsiya əməllərinin də yaddan çıxacağına ümid edirlər. Xüsusilə hazırda yalnız kreslada olan məmurların deyil, sabiq məmurların da vaxtilə yol verdikləri rüşvət və yeyinti faktlarına görə hüquqi məsuliyyətə cəlb edildiyi indiki vaxtda bu, vacib sayılır. Çünki sabah-birigün hansısa keçmiş vəzifəlinin yüksək post tutarkən büdcə pullarına "divan tutduğu" üçün istintaqa cəlb olunacağı bəlli deyil...***

Son vaxtlar həbs riski yuxarı olan belə eks-məmurların mütəmadi siyahıları yayılır. Axır zamanlar isə həmin siyahıya Nəqliyyat nazirinin keçmiş müavini Arif Əsgərovun adı da əlavə edilib. Qeyd edək ki, 2004-2015-ci illərdə Azərbaycan Dövlət Dəmir Yolunun rəisi, 2015-ci ilin fevralından 2017-ci ilin fevralına (nazirlik ləğv olunana qədər) qədər Nəqliyyat nazirinin müavini olmuş Əsgərovla bağlı qalmaqallı xəbərlər yenidən intensivləşib. Öncə onun adı İsveçin



paytaxtı Stokholmda Kanadanın "Bombardier" şirkətinin törəmə şirkətinin ("Bombardier Sweden") keçmiş vitse-prezidenti Tomas Bimer üzərində məhkəmə prosesi zamanı gündəmə gəldi. Belə ki, 2003-cü ildə "Bombardier" şirkəti ilə Azərbaycanın o zamankı Nəqliyyat Nazirliyi arasında bağlanmış Bakı-Böyük Kəsik dəmiryol xəttinin yenidən qurulması layihəsi çərçivəsində siqnal avadanlıqlarının təchizatını nəzərdə tutan müqavilə çərçivəsində "bəzi azərbaycanlı məmurlara" "otkat" verməkdə ittiham olunur. Bimerə qarşı rəsmi ittiham ötən ilin iyun ayında irəli sürülmüşdü.

Xatırladaq ki, ümumi dəyəri 350 milyon dollar olan həmin müqavilədən qiymətlərin kəskin şişirdilməsi və aralıq offşor şirkətlərdən istifadə olunması yolu ilə azərbaycanlı məmurlara 100 milyon dollar "otkat" ötürüldüyü bir neçə il əvvəl üzə çıxmışdı. Bu korrupsiya faktı böyük qalmaqala səbəb olub, "Bombardier" Kanada şirkətinin rəhbəri istefa verib. Və Dünya Bankı bu şirkətin iştirak etdiyi layihələrə kredit ayrılmasını dayandırıb. Həmin dövrdə Nəqliyyat Nazirliyinə Ziya Məmmədov başçılıq edirdi, o vaxt nazirliyin tərkibində olan "Azərbaycan Dəmir Yolları" QSC-nin rəhbəri isə nazir müavini qismində Arif Əsgərov idi.

Xatırladaq ki, ümumi dəyəri 350 milyon dollar olan həmin müqavilədən qiymətlərin kəskin şişirdilməsi və aralıq offşor şirkətlərdən istifadə olunması yolu ilə azərbaycanlı məmurlara 100 milyon dollar "otkat" ötürüldüyü bir neçə il əvvəl üzə çıxmışdı. Bu korrupsiya faktı böyük qalmaqala səbəb olub, "Bombardier" Kanada şirkətinin rəhbəri istefa verib. Və Dünya Bankı bu şirkətin iştirak etdiyi layihələrə kredit ayrılmasını dayandırıb. Həmin dövrdə Nəqliyyat Nazirliyinə Ziya Məmmədov başçılıq edirdi, o vaxt nazirliyin tərkibində olan "Azərbaycan Dəmir Yolları" QSC-nin rəhbəri isə nazir müavini qismində Arif Əsgərov idi.

Ardınca isə məlumat yayıldı ki, Ali Məhkəmənin Mülki kollegiyası "Dəmirbank" ASC və Arif Əsgərovla bağlı iddiaya baxıb. Belə ki, "Dəmirbank" ASC sabiq nazir müavini və onun oğlu Elnar Əsgərova qarşı kredit müqaviləsi üzrə mübahisələrlə bağlı iddia qaldırıb. Məhkəmə kassasiya şikayətini təmin etmədən, qətnaməni isə dəyişdirmədən saxlayıb. Məhkəmə ata-oğul əsgərovlardan müştərək qaydada 92 min 622 dollar tutulması barədə qərar çıxarıb.

Əsgərovlar Binəqədi Rayon Məhkəməsinə çağrılsalar da, getməyiblər. Ona görə də barələrində qiyabi qətnamə çıxarılıb. Qərar çıxarılandan sonra isə Arif və Elnar Əsgərovlar şikayət veriblər ki, bu işə Binəqədi Rayon Məhkəməsində yox, İnzibati-İqtisadi Məhkəmədə baxılmalıydı. Ancaq onların bu vəsatəti təmin olunmayıb.

Qərardan verilən apellyasiya və kassasiya şikayətləri də nəticəsiz qalıb. Bankdan krediti 2015-ci ilin noyabrında Elnar Əsgərov götürüb, atası isə zaminlik edib. Ona görə də bank Elnar Əsgərovla yanaşı, sabiq nazir müavinini də məhkəməyə verib.

Əsgərovlar ailəsinin adı bundan öncə də dəfələrlə müxtəlif qalmaqallarda hallanıb. Üç il öncə E.Əsgərovla bağlı bir iddia isə ölkə gündəminə bomba kimi düşmüş və aylarca müzakirə olunmuşdu. Belə ki, Arif Əsgərovun baldızı və bacanağı ondan ölkə rəhbərliyinə şikayət eləmişdi. Şikayətin motivində isə yenə pul dayanırdı: bir nəfər 7 milyon ABŞ dollarını 2011 - 2012-ci illərdə faizlə, Rahib Hüseynov vasitəsilə Elnar Əsgərova verib. R.Hüseynov E.Əsgərovun xalasıoğlu idi. 2013-cü ildə qarşı tərəf Rahib Hüseynova pul vermədiyi barədə yazılı sənəd imzalayır, çünki Elnar Əsgərov o pulu özünün geri ödəyəcəyini vəd edir. Lakin sonradan bu vədini yerinə yetirmir və əsl skandal qopur. A.Əsgərov oğlunu vəziyyətdən çıxarmaq üçün isə baldızının və bacanağının iki oğlunu qurban seçir, imtiyazlarından faydalanaraq onların həbsinə nail olur...

Əsgərovlarla bağlı yeni qalmaqallı iddialar fonunda ilginc iddia var. Belə ki, sabiq nazir müavininin bir müddət əvvəl ölkəni tərk etdiyi və xaricdə yaşamağa başladığı deyilir. Onun konkret hansı ölkədə olduğu deyilməsə də, A.Əsgərovun Londonda və ya Çexiyada məskunlaşdığı vurğulanır. Buna səbəb kimi barəsində yüz milyonlarla manatlıq korrupsiya dosyesinin olmasıdır. Bildirilir ki, eks nazir müavini həmin dosyenin tozlu rəflərdən endirilməsinə və barəsində hüquqi ölçü götürülməyə başlanmasına görə narahatdır. Onun oğlunun isə daha əvvəldən ilin böyük hissəsini xaricdə keçirdiyi və atasının ölkə kənarındakı biznesinə nəzarət etdiyi bildirilir.

Elə Əsgərovlardan kimsənin "Dəmirbank"ın iddiası üzrə məhkəmə prosesinə qatılmamaları da ata-oğulun Azərbaycanda olmaması ilə əsaslandırılır...

***Sənan Mirzə***




# Ukraynada müharibə uzansa... - Proqnozu

***"Ukraynada müharibə uzanarsa, Rusiya-NATO toqquşması ehtimalı artacaq".***

"Unikal" xəbər verir ki, bunu "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bildirib. Onun sözlərinə görə, Ukrayna uğrunda savaşmaq istəyən xarici ölkə vətəndaşları Kiyevə axın etməyə başlayıblar: "Savaşmaq istəyənlər arasında NATO-ya üzv ölkələrinin vətəndaşları da var. İkincisi, NATO ölkələri Ukraynanı silahlandırır. Rusiya Ukrayna ərazisini bombardman edərkən həmin silahların çatdırılma məntəqələrini hədəf ala bilər. Üçüncüsü, Rusiya Ukraynaya Qara dənizdən də hücum təşkil edib. Rusiyanın NATO-ya üzv ölkələrdən birinin Qara dənizdə üzən hərbi gəmisini və ya bölgə üzərində uçuş həyata keçirən təyyarəsini vura bilmə ehtimalı artır".

E.Şahinoğlu bildirib ki, indi əsas sual budur: Rusiya bilərəkdən və ya bilməyərəkdən NATO-ya məxsus gəmini və ya hərbi təyyarəni vurarsa və bu zaman hərbçilər ölərsə, Şimali Atlantika Blokunun reaksiyası necə olacaq? "Bu, Moskvanın özünü necə aparacağından asılıdır" deyən politoloq hesab edir ki, Rusiya üzr istəyərsə, gərginlikdən qurtulmaq mümkündür. "Yox, əgər Rusiya vurduğu hərbi gəmi və hərbi təyyarəyə görə haqlı olduğunu israr edərsə, NATO adekvat addımlar barədə düşünəcək. Bu halda haqqında çox danışılan üçüncü dünya müharibəsi risqi artacaq", - deyə E. Şahinoğlu vurğulayıb.

# Əlaqələndirmə Qərargahının üzvlərinin sayı artırıldı

***Azərbaycan Prezidentinin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında" sərəncamında dəyişiklik edilib.***

"Unaikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

Sərəncamla "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının üzvlərinin sayı artırılıb.

Belə ki, Əlaqələndirmə Qərargahının üzvlərinin siyahısına Baş nazirinin müavini Şahin Mustafayev, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, mədəniyyət naziri Anar Kərimov, energetika naziri Pərviz Şahbazov əlavə edilib.

Bundan əlavə, "Ramin Quluzadə - Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri" sözləri "Rəşad Nəbiyev - Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri", səhiyyə naziri "Oqtay Şiraliyev" sözləri "Teymur Musayev" sözləri, "Anar Kərimov - Azərbaycan Respublikasının mədəniyyət nazirinin birinci müavini" sözləri "Vüqar Süleymanov - Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri." sözləri ilə əvəz edilib.

# Qərbin sanksiyaları Rusiya iqtisadiyyatına ciddi təsir edəcək

Əli Məsimli: "Həmin sanksiyalar bilavasitə Rusiyaya yönəlsə də, bütövlükdə dünya iqtisadiyyatına, qlobal bazarlara ciddi təsir etməyə başlayıb və getdikcə güclənəcək"



***Rusiya ilə Ukrayna arasında baş verən müharibə təkcə bu iki ölkə arasında elan edilən hədəflər uğrunda yox, daha çox yeni geopolitik düzən uğrunda müharibədir.***

Bunu "Unikal"a açıqlamasında iqtisadçı deputat Əli Məsimli deyib. Onun sözlərinə görə, Qərbin Rusiyaya tətbiq etdiyi sanksiyalar miqyasına görə geniş, funksional baxımdan isə çox təsirlidir.

"Rusiyaya tətbiq edilən sanksiyalara dünyanın 50-dən artıq ölkəsi, bir sıra beynəlxalq, regional qurumlar, şirkətlər və s. qoşulub. Həmin sanksiyalar bilavasitə Rusiyaya yönəlsə də, bütövlükdə dünya iqtisadiyyatına, qlobal bazarlara ciddi təsir etməyə başlayıb və getdikcə güclənəcək. Müharibənin və sanksiyaların təsiri ilə neftin, təbii qazın qiymətinin yüksəlməsi Rusiya kimi Azərbaycanın da həmin məhsulların ixracından əldə etdiyi gəlirləri artır. Bununla belə Rusiyanın təminatının yarıdan çoxu xaricdən gəlir. Rusiyaya qarşı Qərb tərəfindən tətbiq edilən sərt sanksiyalar artıq ölkənin bütün iqtisadi sferalarına təsirini göstərir. Əsas problemlər maliyyə, devalvasiya, inflyasiya, hesablaşmalar, təchizat, xüsusən də ən qabaqcıl texnologiyalarla təchizat və digər sahələrdə olacaq".

Deputat onu da qeyd edib ki, Rusiyaya tətbiq edilən ciddi iqtisadi sanksiyalar bu ölkənin milli valyutasını xeyli ucuzlaşdırıb:

"Nəzəri baxımdan rus rublunun ucuzlaşması Rusiya ilə daha çox ticarət əlaqəsi olan ölkələrin milli valyutasına təzyiqi gücləndirəcək. Amma Azərbaycan manatı Rusiya rubluna yox, ABŞ dolları ilə neftə bağlıdır. Manatın məzənnəsi dünya bazarında neftin qiymətinin ölkəmizin tədiyyə balansına təsirindən və həmin təsirlərin müddətindən asılıdır.Neftin qiymətinin hazırki yüksək səviyyəsi şəraitində rublun təzyiqi ilə manatın ucuzlaşması ehtimalı yoxdur. Rublun ucuzlaşması Azərbaycanın Rusiyadan idxal etdiyi maşın, avadanlıq, texnika, tikinti-inşaat məhsullarının daha ucuz qiymətə gəlməsinə, bizim Rusiyaya ixrac etdiyimiz kənd təsərrüfatı məhsullarının qiymətinin isə orada bahalaşmasına səbəb olacaq. Rublun ucuzlaşması davam etsə, həmin ölkə əhalisinin alıcılıq qabiliyyəti aşağı düşəcək və bu, Azərbaycanın həmin ölkə ilə ticarətinə mənfi təsir göstərə bilər. Digər tərəfdən, sanksiyalar Rusiyanı beynəlxalq səviyyəli asan hesablaşmalar sistemindən kənarda qoyur. Bu, Azərbaycanla Rusiya arasında mal mübadiləsinin hesablaşmalarının əvvəlki kimi olmasına mənfi təsir edə bilər. Rusiyadan Azərbaycana ixrac olunan məhsulların qiymətinin ucuzlaşması Azərbaycanda istehsal olunan eyni tipli yerli məhsulların rəqabətdə uduzmasına və həmin sahələrin zəifləməsinə gətirib çıxaracaq".

Ə.Məsimli onu da əlavə edib ki, Rusiyanın təchizatının yarıdan çoxu xaricdən aldığı mallar hesabına ödənilir:

"Sanksiyalar bu sahədə problem və məhdudiyyətlər yaradacaq. Bu baxımdan işlər düzgün qurulsa, Rusiyada ehtiyac yaranan məhsulların bir hissəsini Azərbaycanın ixracının artırılması hesabına həll etmək olar. Rusiyanın bir sıra regionlarında təchizat sahəsində problemlər özünü göstərməyə başlayıb. Azərbaycanla Rusiya arasında ticarətə mane olan amillər özünü göstərməsə də, bir sıra hallarda mal təchizatında yaranan fasilələr Rusiyada ticarət sahəsində çalışan həmvətənlərimizin fəaliyyətinə mənfi təsir göstərir. Digər tərəfdən isə inflyasiya güclənd iyindən, alıcılıq qabiliyyəti aşağı düşdüyündən, Rusiyada ticarət sahəsində çalışanların gəlirləri azalmağa başlayıb".

***Anar Kəlbiyev***

# Nazim İbrahimovun Ukrayna qorxusu...

## Sabiq komitə sədrinin bu ölkədəki biznesinin aqibəti necə olacaq?



***Rusiyanın Ukraynada başlatdığı işğal əməliyyatı genişmiqyaslı müharibəyə çevrilib və hazırda savaş bölgəsindən həyəcanlı xəbərlər gəlməkdədir. Lakin biz bu yazıda həmin müharibədən yox, başlayan savaşın sabiq iri məmurlarımızdan birində - Diasporla İş üzrə Dövlət Komitəsinin keçmiş sədri Nazim İbrahimovda yaratdığı təlaşdan bəhs edəcəyik.***

Məsələ burasındadır ki, 2018-ci ilin aprel ayında tutduğu vəzifədən azad edilən İbrahimovun Ukraynada olduğu barədə məlumatlar yer alıb. Əvvəlcə qeyd edək ki, mediada Elnur İbrahimovun Silahlı Qüvvələrdə hərbi xidmətə yollanması haqqında məlumat yayıldıqdan sonra onun xidmət dövrünü hərbi hissədə yox, ayrı-ayrı istirahət mərkəzlərində, şəxsi təyyarəsində, müxtəlif xarici ölkələrdə keçirdiyi söylənib. Buna sübut kimi bir neçə foto da məlumatda yer alıb.

Keçmiş sədrin qızı Kəmalə İbrahimovanın da şəxsi biznesi barədə qeyd edilərkən onun "DeCamie" moda evinin sahibi olduğu bildirilir.

Nazim İbrahimovun Ukraynadakı əmlaklara ciddi ziyan dəyib.

Yeri gəlmişkən, Dövlət Komitəsinin sədri vəzifəsində çalışarkən N.İbrahimovun Ukraynadakı biznesini onun yaxın adamları idarə edib. O, yalnız ara-sıra bu ölkəyə səfər edərək gəlirlər barədə hesabat qəbul eləyirmiş.

Vəzifəsindən uzaqlaşdırıldıqdan sonra isə sabiq diaspora rəhbərinin Ukraynaya səfərləri intensivləşib və o, hər səfərində yaxınlarına buradakı biznes şəbəkəsini daha da genişləndirmək niyyətində olduğunu gizlətməyib. Üstəlik, bu şəbəkənin başında iri biznesi var. Qalmaqallı məmur kimi yadda qalan, işdən çıxarıldıqdan sonra Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyev tərəfindən birbaşa korrupsiyada ittiham edilən, bundan sonra həbsi belə gündəmə gələn sabiq komitə sədri hələ 1991-97-ci illərdə biznes fəaliyyəti ilə məşğul olub. Həmin vaxtdan onun ticarət işlərində Ukrayna xüsusi yer tutub.

1997-ci ilin mart ayından Azərbaycan Respublikasının Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri təyin edildikdən sonra İbrahimov bu ölkədəki biznesini daha da möhkəmləndirib və genişləndirib.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri təyin edildikdən sonra vardövlətini daha da artıran İbrahimov böyük məbləğdə büdcə pullarını təyinatı üzrə xərcləməyərək onları faktiki olaraq biznesinin böyüməsinə yönəldib. Tezliklə nəinki onun özü, övladları belə böyük sərvətə yiyələniblər. Məsələn, sabiq "diaspora şefi"nin oğlu Elnur İbrahimovun şəxsi təyyarə ilə səyahət etdiyi, bahalı yaxtalara sahib böyük biznesinə gəlincə, o hazırda savaşın getdiyi ölkədə nəhəng maliyyə imperiyası qurmağa müvəffəq olub. Bu "imperiyaya" ticarət mərkəzləri, müxtəlif profilli mağazalar, otellər və restoranlar daxildir.

Sabiq sədrin adıçəkilən ölkədəki evlərinin sayı da barmaqla sayılası qədər deyil. Onun geniş torpaq sahələrinə də sahibləndiyinə dair məlumatlar var. İddialara görə, sabiq "diaspora şefi"nin Ukraynadakı biznes şəbəkəsi təkcə paytax Kiyevi deyil, Ukraynanın ayrı-ayrı bölgələrini, o cümlədən, qanlı savaşdan ən çox əziyyət çəkən şəhərlər siyahısında gələn Xarkovu əhatə edir.

Bütün bunları nəzərə aldıqda isə hazırda Nazim İbrahimovun təlaşlı günlər keçirməsini anlamaq olar. Onun təlaşının, əndişəsinin kökündə isə müharibə, bu müharibənin bir ölkəyə və xalqa yaşatdığı faciələr yox, Ukraynadakı ticarət obyektlərinin, çoxsaylı mənzillərinin aqibəti dayanır. İstisna deyil ki, həm Kiyevdə, həm Xarkovda eks-komitə sədrinə məxsus biznes subyektlərinə, daşınmaz artıq şəxsən özünün dayanacağını deyib. Hətta bir müddət əvvəl onun Kiyevdə olduğu, budəfəki səfərinin uzun müddətli ola biləcəyi, yəqin ki, orada qalıb Ukraynadakı biznesi ilə bağlı bütün məsələlərlə şəxsən özünün məşğul olacağı iddia edilmişdi.

Bundan başqa, N.İbrahimovun tamamilə Ukraynaya köçməsi də istisna olunmurdu.

Üstəlik, yerli mediada N.İbrahimovun mütəmadi şəkildə Kiyevə getdiyini təsdiqləyən foto da yayılmışdı. Həmin foto Ukrayna paytaxtındakı Borispol Hava Limanında çəkilmişdi və bildirilmişdi ki, o, Bakı-Kiyev təyyarə reysindən düşüb...

Bir sözlə, sabiq "diaspora şefi"nin bu gün işğal əməliyyatı ilə qarşı-qarşıya qalan və müharibə vəziyyətində olan Ukrayna ilə sıx biznes bağlarının mövcudluğu şübhə doğurmur. Savaşın həmin biznesə necə təsir edəcəyini və keçmiş komitə sədrinə baha başa gələcəyini isə zaman göstərəcək...

***Sənan Mirzə***

# Elsevər Ağayevin təftiş əndişəsi...

## Sabiq nazir müavininin fəaliyyəti yoxlanılacaq?

***Ötən ayın əvvəlində ölkə başçısının imzaladığı müvafiq sərəncamlar ilə səhiyyə nazirinin müavinləri vəzifələrindən azad olundular. Belə ki, sərəncamlarla Nigar Ramiz qızı Əliyeva, Elsevər Məmməd oğlu Ağayev, Rahim Rafail oğlu Əliyev, Viktor Kərimoviç Qasımov işdən çıxarıldılar.***

Vəzifəsindən azad olunanlardan biri Elsevər Ağayev bunun ardınca yerli KİV-ə qısa açıqlama vermişdi. Keçmiş nazir müavini kefinin yaxşı olduğunu bildirmişdi: "Kefim əladır. Biraz işlərim var. İşimdən azad olunmağımla bağlı hansısa şərh vermək istəmirəm. Sonra danışarıq".



Lakin gələn iddialar sabiq müavinin kefinin əla olması üçün bir o qədər də ciddi səbəb olmadığı qənaətindədir. Belə ki, onun fəaliyyətinin təftiş ediləcəyi barədə söz-söhbətlər yayılıb. İddialara görə, hələ sabiq səhiyyə naziri Oqtay Şirəliyevin zamanında nazirliyin əsas söz sahibinə çevrilən və geniş biznes quran Ağayevin xüsusilə özəl xəstəxanalara və tibb müəssisələrinə qarşı təzyiqləri, onlara "haqq" qoyması, xüsusilə, özəl klinikaların lisenziya məsələsində həlledici rolu ciddi narazılıqlar doğurmuşdu. Bundan başqa, ölkədəki aptek sahiblərinin də Elsevər müəllimdən saysız-hesabsız şikayətlərinin olduğu bildirilirdi. Hətta Şirəliyevin dəfələrlə Elsevər Ağayevlə bağlı müvafiq qurumlara və Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə müraciət etdiyi barədə də yerli KİV-də məlumatlar yayılmışdı. Lakin maraqlıdır ki, həmin məlumatlar təsdiqlənməsə belə təkzib də edilməmişdi.

Maraqlıdır ki, E.Ağayev Cənubi Qafqazda ən böyük dərman deposuna sahib olan "Avromed" dərman şirkətinin himayəçisi kimi də təqdim olunurdu. Şirkətin faktiki idarəçiliyi isə deputat Cavanşir Feyziyevin əlindədir. Feyziyevin son zamanlar Britaniyadakı sərvəti ilə bağlı ciddi qalmaqal yaşadığı dönəmdə sabiq nazir müavininin də işsiz qalması ilginc məqamlardan biridir...

Daha bir diqqətçəkən məqam isə odur ki, səhiyyə nazirinin müavini postunu itirdikdən sonra Elsevər Ağayevin Farmakoloji və Farmakopeya Ekspert Şurasının sədri vəzifəsindən də uzaqlaşdırıldığı barədə məlumat yayılıb. Digər məlumata görə, qarşıdakı aylarda Elsevər Ağayevin öncə rəhbərlik etdiyi Farmakoloji və Farmakopeya Ekspert Şurası başqa bir adla yenidən təşkil ediləcək.

Beləliklə, sabiq nazir müavini dərman bazarındakı təsir gücünü tamamilə itirib.

Yerli mətbuatda o da bildirilirdi ki, Səhiyyə Nazirliyi xətti ilə keçirilən tenderlərdə də E.Ağayev əsas söz sahibi imiş. Xüsusilə bir neçə il öncədən etibarən yerli xəstəxanalar üçün nəzərdə tutulan vəsaitlərin və ləvazimatların alınması birbaşa nazirliyə həvalə edilib. Belə ki, əvvəllər rayon İcra Hakimiyyətləri xəstəxanalar üçün tenderləri özləri keçirir və şirkətləri də özləri müəyyən edirdilər. Lakin sonradan həmin proses birbaşa Səhiyyə Nazirliyinin tabeliyinə verilib. Daha doğrusu, nazirlik hər il ayrılan milyonlarla manat vəsaiti nəzarəti əlində cəmləşdirib. Bu zaman isə eks-nazir müavininin yeni qazanc imkanlarına sahibləndiyi vurğulanırdı.

Ən son iddialar isə indiyədək deyilənlər və yazılan bütün bu iddiaların qarşıdakı günlərdə ciddi şəkildə təftiş olunacağı, E.Ağayevin fəaliyyətinin dərindən yoxlanılacağı yönündədir.

Xatırladaq ki, hazırda 55 yaşı olan sabiq nazir müavini 1983-1988-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun əczaçılıq fakültəsini fərqlənmə diplomu ilə bitirdikdən sonra həmin institutun dərman formalarının texnologiyası kafedrasında baş laborant kimi əmək fəaliyyətinə başlayıb. 1990-cı ildə Səhiyyə Nazirliyinin "Farmokologiya və xalq təbabəti" elm - istehsalat birliyində mütəxəssis, 1990-1993-cü illərdə Sankt Peterburq Kimya-Əczaçılıq Akademiyasında məqsədli aspiranturanı bitirib əczaçılıq elmləri namizədi elmi dərəcəsini alıb geri qayıtdıqdan sonra baş mütəxəssis, şöbə müdiri işləyib. 1996-cı ildə həmin birliyin baş direktoru təyin olunub. 1997-cü ildə Səhiyyə Nazirliyinin "Dərman və Tibbi Texnika" İTB-nin baş direktoru, SN-nin "Əczaçılıq və Tibb Sənayesi" EİB baş direktoru vəzifəsinə təyin olunan Ağayev iki il sonra Azərbaycan səhiyyə nazirinin müavini vəzifəsinə təyinat alıb. O, həmçinin 2007-ci ildən Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Əczaçılıq kafedrasının müdiridir.

***Toğrul Əliyev***

# Sürücülərin nəzərinə: "İcazə" blankları möhürlənməlidir

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidməti (DANX) sürücülərə və daşıyıcı şirkətlərə müraciət edib.***

"Unikal" xəbər verir ki, müraciətdə deyilir ki, bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da "İcazə" blanklarına daşıyıcının ştampının vurulması sırf onun məsuliyyəti və vəzifəsidir.

Daşıyıcıların bəzi hallarda üzərlərinə düşən məsuliyyətə etinasız yanaşması xoşagəlməz nəticələrə, blankların qanunsuz satışına yol açır. Mənfi halların qarşısının alınması məqsədilə daşıyıcılar "İcazə" blanklarını xidmətdən təhvil alan zaman onları yerində şirkətin ştampı ilə möhürləməlidirlər. DANX prosedurun icrasına nəzarət edən əməkdaşlar ayırıb.

Qurumda, həmçinin "İcazə" blanklarının nömrələri əsasında hansı daşıyıcıya verilməsi qeydə alınır. Bu, daha sonra identifikasiya aparmağa və qanunsuz satış hallarını araşdırmağa imkan yaradır.

DANX sürücülərə və daşıyıcılara diqqətli olmağı tövsiyə edir. "İcazə" blanklarının qanunsuz satışı ilə rastlaşarlarsa, bu barədə office@danx.gov.az elektron poçt ünvanı, https://www.facebook.com/AzDANX rəsmi "Facebook" ünvanı və (012) 566 52 58 telefon nömrəsi vasitəsilə DANX-a məlumat vermələri xahiş olunur.

"İcazə blankları" ölkələr arasında razılığa əsasən daşımaların həcminə uyğun müəyyən olunan və beynəlxalq yükdaşımalarını icra etmək üçün tətbiq edilən sənəd növüdür. Bu sənəd ölkələr arasında daşımaların həcmindən asılı olaraq, kvota əsasında müəyyən olunaraq paritet qaydada mübadilə edilir.

# DYP-dən hava şəraiti ilə bağlı müraciət



***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin verdiyi məlumata əsasən, bu gün gecədən başlayaraq martın 5-dək ölkə ərazisində, xüsusilə Bakıda və Abşeron yarımadasında hava şəraitinin güclü külək və yağışla müşahidə olunan kəskin dəyişməsi gözlənilir.***

"Unikal" xəbər verir ki, DİN-in Baş Dövlət Yol Polisi İdarəsi verilən xəbərdarlıqla əlaqədar yollarda yarana biləcək yol qəzaları və digər xoşagəlməz halların qarşısının alınması üçün hərəkət iştirakçılarına müraciət edərək onlardan yola çıxarkən diqqətli olmağı, yol hərəkəti qaydalarına istisnasız riayət etməyi, digər hərəkət iştirakçılarına, xüsusilə piyadalara qarşı məsuliyyətli və şəfqətli davranmağı xahiş edir.

Xatırladaq ki, əlverişsiz hava şəraitində nəqliyyat vasitələrinin texniki vəziyyətinə, o cümlədən şüşəsilənlərinin, işıq cihazlarının saz vəziyyətdə olmasına diqqət yetirmək, mümkün qədər günün işıqlı vaxtı yola çıxmaq, sürət həddini düzgün seçmək, ara məsafəsini normadan artıq saxlamaq, eləcə də zərurət olmadan ötmə əməliyyatı aparmaqdan, qəfil manevrlərdən və kəskin tormozlamadan çəkinmək avtonəqliyyat vasitələrində hərəkət zamanı təhlükəsizliyə zəmanət verən amillərdir.

Qoşqulu, tentli, uzun ölçülü yük avtomobillərinin sahibləri və sürücüləri daha diqqətli olmalı, küləkli hava şəraitində hərəkətin çətin və təhlükəli olduğunu unutmamalı, daşıdıqları yükün qablaşdırılmasına xüsusi diqqət yetirməlidirlər.

Piyadalar isə küləkli və yağışlı havalarda daha da məsuliyyətli olmalı, yollarda özlərinin və digər hərəkət iştirakçılarının həyat və sağlamlığına təhlükə yaradan davranışlardan çəkinməlidirlər.

# Minaatan bölmələrinin təlimi keçirilib

***Cari ilin döyüş hazırlığı planına uyğun olaraq, Quru Qoşunlarının minaatan bölmələri ilə təlim atış çalışmaları yerinə yetirilib.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, bölmələr atışdan əvvəl ərazidə açılma, atəş mövqelərinin tutulması və minaatanların döyüş vəziyyətinə gətirilməsi üzrə normativləri yerinə yetiriblər.

Minaatanlardan yarımdüzünə tuşlama ilə tək hədəfə yerindən atış üzrə təlim atış çalışmaları müvəffəqiyyətlə icra olunub.

Bölmələrin təlim prosesi Vətən müharibəsində qazanılan döyüş təcrübəsi nəzərə alınaraq uğurla həyata keçirilir.



## DSX əməliyyat keçirdi, Füzuli sakini 14 kq narkotiklə tutuldu

***Dövlət Sərhəd Xidməti (DSX) əməkdaşları əməliyyat keçirib, saxlanılanlar var.***

DSX-nin Mətbuat Mərkəzindən "Unikal"a verilən məlumata görə, mart ayının 2-də saat 21:05 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Beyləqan rayonunun Əmirzeyidli kəndi yaxınlığında yerləşən sərhəd zastavasının ərazisində içərisində 1 nəfərin olduğu "VAZ-2107" markalı 19-BK-024 dövlət nömrə nişanlı avtomobilin əraziyə yaxınlaşması, avtomobildəki şəxsin düşərək orada gizlədilmiş idman çantası və bağlama götürməsi sərhəd naryadının diqqətini cəlb edib.

Sərhəd naryadının "Dayan" əmrinə tabe olmayaraq ərazidən uzaqlaşmağa cəhd edən naməlum şəxs saxlanılıb. Onun Füzuli rayon sakini 1961-ci il təvəllüdlü Məmmədov Tahir Məmmədqulu oğlu olması müəyyənləş dirilib, əlindəki idman çantası və bağlamaya baxış zamanı içərilərində ümumi çəkisi 14 kiloqram 200 qram narkotik vasitə (5800 qram "marixuana", 4200 qram "heroin", 2100 qram "tiryək") və psixotrop tərkibli həblər (1900 ədəd "metadon-40", 290 ədəd "Gabaprel 300") aşkar olunaraq götürülüb.

Araşdırma zamanı göstərilən şəxsin eyni cinayətə görə əvvəllər məhkum olması müəyyən edilib.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## Yağış yağacaq, güclü külək əsəcək - Xəbərdarlıq

***Bakıda və Abşeron yarımadasında gün ərzində arabir yağış yağacağı gözlənilir.***



Milli Hidrometeorologiya Xidmətindən "Unikal"a verilən məlumata görə, martın 4-də cənub-qərb küləyinin şimal-qərb küləyi ilə əvəz olunacağı, 15-20 m/s, arabir 23-28 m/s-dək güclənəcəyi, 5-də yenidən güclü cənub-qərb küləyi ilə əvəz olunacağı gözlənilir.

Martın 3-dən 4-nə keçən gecə şimal və qərb rayonlarından başlayaraq ölkə ərazisində hava şəraitinin dəyişəcəyi, şimşək çaxacağı, yağıntılı olacağı, 4-də bəzi yerlərdə intensivləşəcəyi, dağlıq və dağətəyi rayonlarda qar yağacağı, 5-də yağıntının tədricən kəsiləcəyi gözlənilir. Qərb küləyi arabir 15-20 m/s, bəzi yerlərdə arabir 25-30 m/s-dək güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə 5-8º aşağı enəcək.

Əsasən Böyük və Kiçik Qafqazın bəzi dağ çaylarında sululuğun artacağı gözlənilir.

# Ramiz Tatarovun "özünüxilas fəndi"

## Bütün günahı həbsdə dünyasını dəyişən eks-icra başçısının üzərinə yıxması sabiq birinci müavinə kömək edəcəkmi?

***Ağstafa Rayon İcra Hakimiyyətinin (RİH) keçmiş başçısının həbsdə olan sabiq müavini Ramiz Tatarovun istintaqa verdiyi bəzi ifadələr məlum olub. O, istintaqda dindirilən zaman özünü elan edilmiş ittiham üzrə təqsirli bilsə də, ilginc fikirlər səsləndirib.***

Öncə kiçik arayış: Qeyd edək ki, N.Quliyev və R.Tatarov 2019-cu ilin dekabr ayında Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən keçirilən əməliyyat nəticəsində həbs olunub. Gəncə Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə N.Quliyev 9 il və R.Tatarov isə 8 il 6 ay müddətində azadlıqdan məhrum ediliblər.

(Xatırladaq ki, 2021-ci il sentyabrın 7-də N.Quliyev Gəncə şəhər modul tipli xəstəxanasında koronavirusdan vəfat edib. Bundan sonra Gəncə Apellyasiya Məhkəməsinin qərarına əsasən, N.Quliyevin cinayət işinə bəraətverici əsaslar olmadan xitam verilib. Onun əmlakının üzərinə qoyulmuş həbs götürülüb.

Məhkəmə R.Tatarovun ittiham olunduğu Cinayət Məcəlləsinin 313-cü (Vəzifə saxtakarlığı) maddəsini isə müddət keçdiyi üçün ittihamdan çıxarılıb və cəzası 3 ay azaldılıb).

İndi isə gələk uzun illər vəzifədə olmuş və adı ölkə ictimaiyyətinə hər hansı icra başçısından belə az tanış olmayan Tatarovun ifadəsindəki ilginc məqamlara... Məsələn, o deyib ki, həbsdə vəfat edən Ağstafa RİH-in keçmiş başçısı Nizaməddin Quliyev 2019-cu ilin aprel ayının 5-də rayon icra başçısı təyin edildikdən sonra kənd icra nümayəndələrindən və bələdiyyələrdən onun vasitəsilə, eləcə də özü rüşvət toplamağa başlayıb.

R.Tatarov deyib ki, N.Quliyev onu yanına çağırıb icra nümayəndələrinə və bələdiyyələrə söz göndərməyini istəyib: "Nizaməddin Quliyev kim onun istədiyi məbləği verməsə, həmin şəxsi işdən azad edəcəyini bildirdi. Onun tapşırığı əsasında kənd icra nümayəndələrindən və bələdiyyələrdən müxtəlif məbləğlərdə rüşvət yığıldı, sonradan həmin pulların hamısını Nizaməddin Quliyevə verdim".

İttihamda qeyd edilib ki, N.Quliyevin xidməti otağına baxış zamanı üzərində "Düzqışlaq 5000", "Xətai 5000", "Musayev Bəhram 180 ha üçün 1500", "Həsənzadə İsaq 300 ha üçün 2500", "Aslanov Mahal 100 ha üçün 1000", "Mehdiyev Ədalət 25 ha üçün 300", "Poylu bağça 1500", "Sadıqlı bağça 5000", "Böyük Kəsik bağça 4000", "Ağgöl bağça 3000", "Zəlimxan 2000", "Ömərov Pərviz 400 ha 4000", "Həsənov Əli Kərəm oğlu 5000", "Abadlıq 4000", "Pirili bağça (gözətçi) 1000", "Qırılı bağça 1500", "Qarahəsənli bağça 1000", Həsənov Şahsevər Bəhruz oğlu 123 ha 1000", "Poylu Qəsəbə (Nümayəndə) 4000", "Aşağı Kəsəmən 4000", "Saloğlu 3000", Köçvəlli 3000", "Qarayazı bağça 1500", "B.kəsik tikinti 2000", "Əlicanov Ramiz 350 ha 2000", "Qarayazı bağça (gözətçi) 1000", "Komoxoz 12000", "Qızılı 1 saylı bağça 1500", "Q.Kəsəmən bağça gözətçi 2000", "Sadıqlı bağça 1500", "Köçəsgər bağça (tərbiyəçi) 1000", Sadıqov Hacı 141 ha 1500", "Mustafayev Elşən 500 ha 4000", "Komoxoz yeni iş 10000", "Karxan 5000", "Karxan 5000", "Karxan 2000", "Osmanova Gülnarə 300 2500", "Ömərov Usub 514 4000", "Komoxoz 10.000", "Xətai bağça 1500", "Mikayılov Azər 190 ha 1500", "Aşağı Göyçəli 2000", "Qarahəsənli 2000", "Q.Kəsəmən 3000", "Sadıqlı 2000", "Qızılı 2000", "Kol-Xəlfəli 2000", "Tatlı 2000", "Tatlı mühasib 1500", "Qarayazı mühasib 1500", "Vurğun bağça 075 1000", "Həsənsu 2000", "Vurğun 5000", "Böyük Kəsik 3000", "Düzqışlaq 2000", "Pirili 3000", "Xanəliyev Binnət 60 ha 500", "Muqanlı 3000", "Göyçəli 3000", "Poylu 3000", "Poylu qəsəbə 2000", "Xılxına 2000", "Bağça (Hesabat var) 6000", "Səhiyyə (hesabat var) 5000", "Xətai bələdiyyə 2000", "Həsənsu bağça 1500", "Q.Kəsəmən tikinti 1500" adlar və məbləğlər yazılmış 23 ədəd kağız parçası aşkarlanıb.



R.Tatarov bu epizod üzrə söyləyib ki, vərəqlərdə göstərilən adlar - icra ümayəndələrinin, bələdiyyələrin, bağça müdirlərinin, torpaq sahiblərinin adları olub: "Adların qarşılarında yazılmış məbləğlər isə onlardan rüşvət qismində alınan pullar idi. Həmin kağız parçaları mənim xəttimlə yazılıb. Nizaməddin Quliyev gün ərzində yığılan rüşvətlərin alındığı şəxslərin adları və məbləğləri qeyd edilmiş kağız parçasına yazılmasını tapşırmışdı. Mən də onun tapşırığı ilə aldığım pulların məbləğini kağız parçalarının üzərinə yazdım. Daha sonra pulları qeyd etdiyim kağız parçalarının arasına qoyaraq birlikdə Nizaməddin Quliyevin xidməti otağında ona verdim".

Deyilənlərdən belə aydın olur ki, həbsdə olan sabiq müavin bütün müdafiə taktikasını hazırda həyatda olmayan keçmiş icra başçısının üzərində qurub. O, alınan rüşvətlərin, mənimsənilən büdcə pullarının hamısını Nizaməddin Quliyevin "ayağına" yazaraq özünü "təmizə çıxarmağa" çalışır; bununla da mümkün qədər az cəza almağa çalışır.

Xatırladaq ki, Ramiz Tatarov 19918-ci ildən Ağstafada 1-ci müavin postunu tutub və qısa müddət sonra onun barəsində ölkə mətbuatında ittihamedici yazılar yer almağa başlayıb. O, rayondakı sahibkarları incitməkdən, büdcə təşkilatlarının rəhbərlərini "taskıya" oturtmaqdan tutmuş özünə geniş biznes qurmağa, misilsiz sərvət toplamağadək bir çox qanunsuzluqlarda günahlandırılıb. Belə ittihamların əsassız olmadığı isə bir neçə il öncə rəsmən təsdiqlənib: 2015-ci ildə Tatarovun korrupsiya fəaliyyəti Hesablama Palatası tərəfindən ifşa edilib - Ağstafa rayon İcra Hakimiyyətində (RİH) aparılan auditin nəticələrinə dair hesabat sənədində nöqsanlara yol verən 3 nəfərə, o cümlədən icra başçısının birinci müavininə - yəni hazırda həbsdə olan Ramiz müəllimə xəbərdarlıq edildiyi qeyd olunub.

Bundan sonra Tatarov ciddi şəkildə əl-ayağa düşüb və özünün "yuxarılardakı" gizli himayədarlarının səyləri sayəsində 2017-ci ildə "Tərəqqi" medalına layiq görülməyi bacarıb. Lakin bu onu cəmi bir neçə il sonra hüquqi məsuliyyətə cəlb olunmaqdan qurtulmağa kömək etməyib. Odur ki, Tatarovun indi məhkəmədə bütün suçu-günahı mərhum icra başçısının üzərinə yıxaraq vəziyyətdən çıxacağı, ən azından yüngül cəza ilə qurtulacağı da inandırıcı görünmür...

***Toğrul Əliyev***

**Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Ukraynada yaşayan azərbaycanlılar həmrəydir

## Ceyhun Məmmədov: "Çalışırıq ki, öz soydaşlarımızın təxliyəsinə əlimizdən gələn köməyi göstərək"



***Ukraynada aparılan müharibə bu ölkədə yaşayan xeyli sayda həmvətənimizin təxliyə məsələsini gündəmə gətirdi. Artıq bu ölkədən Azərbaycana xeyli sayda soydaşımız təxliyə olunub. Azərbaycanlılar həmrəylik göstərərək Ukraynanın bombalanan şəhərlərində qalan insanlara, öz həmvətənlərimizə dəstək göstərir. Ukraynada qalan tələbələr də təxliyə üçün Ukraynadakı Konsulluğumuza müraciət ediblər.***

Ukrayna Ali Radasının rəhbəri Ceyhun Məmmədov "Unikal"a müsahibəsində bildirib ki, o özü də hazırda Ukraynadadır. Bu ölkədə yaşayan həmvətənlərimizin təxliyəsinə dəstək olur: "İndiyədək 10 min nəfərdən çox azərbaycanlı Ukraynanı tərk edib. Biz dünən 1200 azərbaycanlının vətənə qayıtmasına köməklik etmişik. Çalışırıq ki, öz soydaşlarımızın təxliyəsinə əlimizdən gələn köməyi göstərək".

Rada rəhbəri onu da qeyd edib ki, dünəndən etibarən Kiyevə olan hava hücumları daha da intensivləşib: " Düşmən istəyinə çata bilmədikcə daha da azğınlaşır. İndi ümidləri raketlərlə xalqı qorxutmağa qalıb. İnfrastruktur obyektləri əsas hədəf olaraq seçilib. Ukrayna hava hücumundan müdafiə qüvvələri bir çox zərbələrin qarşısını alsa da təəssüf ki, bəzilərinin qarşısı alına bilmir. Kiyevdə elektrik sistemində, isitmə sistemində, kommunikasiya sistemlərində heç bir problem yoxdur. Dəmiryol vağzalı işləyir. İmkanı olanlara qatarlarla qərb tərəfə getmələri məsləhət görülür! Bu günə qədər bir milyondan çox insan Ukraynanı tərk edib. 15000-dən yuxarı insan Kiyev metrosunda gecələyir. Parkinglər, zirzəmilər insanlarla doludur. Amma heç kim Zelenskini günahlandırmır! Əsas gücü Xarkov istiqamətinə yönəldən işğalçılar özləri də böyük itkilər verirlər. Xarkov yaxınlığında Rusiyanın birinci tank ordusu məhv edilib. Birinci Tank Ordusu, bölmələri paradlarda çıxış edən və yeni texnika alan Rusiyanın ən elit tank qrupudur. Xalqın mübarizə əzmini qırmaq mümkün deyil. Mən öz facebook səhifəmdə hər gün çıxacaq qatarların nömrələrini yazmışam. İnsanlar həmin qatarlar vasitəsilə qərbə doğru istiqamət götürə bilərlər".

O, Ukraynanı tərk etməyən insanlara isə diaspor təşkilatlarımızın imkan olduğu qədər dəstək göstərdiyini bildirdi: "Burada avtomobillə hərəkət etmək də çətindir. Yollarda postlar qurulub. Amma çalışırıq ki, biz bu çətin vəziyyətdə həmrəy olaq".

C.Məmmədov Azərbaycanın Ukraynadakı səfiri Elmira Axundovanın Kiyevi tərk etdiyinə dair iddialara da münasibət bildirib: "Mən bu barədə qəti fikir söyləyə bilmərəm. Amma biz dünən də azərbaycanlıların növbəti qrupunu göndərmişik. Bu proseslərin heç birində onun iştirak etdiyini görmədik".

Ukraynanın Dnepr vilayətində ilk diaspor təşkilatının qurucularından biri olan, tarixçi Eldar Tağıyev isə "Unikal"a açıqlamasında bildirib ki, hazırda diaspor təşkilatları öz həmvətənlərimizə əlindən gələn dəstəyi əsirgəmir. E. Tağıyev bu ölkədə təhsil alan azərbaycanlı tələbələrin bir qrupunun Ukrayna ərazisindən artıq çıxardılaraq Moldovaya yerləşdirildiyini, oradan tədricən Azərbaycana göndərildiyini söyləyib: "İndi elə bir vaxtdır ki, hamımız əl-ələ, bir-birimizə dəstəyik. Elə yerlər var ki, orada hərəkət etmək, evdən çıxmaq təhlükəlidir. Amma mağazalar işləyir. Heç kəs narahat olmasın ki, bizim buradakı azərbaycanlılar acından öləcək. Buna biz də imkan verməmərik. Kimin əlində nə varsa öz köməkliyini göstərir".

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi Ukraynada yaranmış vəziyyətlə əlaqədar olaraq bu ölkədə daimi və ya müvəqqəti yaşayan və Azərbaycana təxliyə olunmaq istəyən soydaşlarımıza müraciət edib. Müraciətdə deyilir:

"Ukraynanın Polşa və Slovakiya ilə sərhədinə yaxın bölgələrdə yaşayan azərbaycanlılar təxliyə olunmaq üçün diaspor fəalı Mahmud Qurbanovla +48 795 759 534, +380 67 768 9272, +380 66 635 6155 və +380 67 738 1592 telefon nömrələri ilə əlaqə saxlaya bilərlər.

Diasporla İş üzrə Dövlət Komitəsi soydaşlarımızın Ukraynadan təxliyə edilməsi üçün Azərbaycan Respublikasının müvafiq dövlət orqanları ilə koordinasiyalı şəkildə fəaliyyət göstərir.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin yaydığı məlumata görə, istər Polşa, istərsə də Slovakiya tərəfi Azərbaycan vətəndaşlarından viza tələbinə riayət olunmasını, eləcə də COVID-19 pasportunu (COVID-19-a qarşı tam peyvənd olunmasını və ya COVID-19-dan sağalaraq immunitetə malik olmasını təsdiq edən sənəd) və COVID-19-a dair PCR testinin neqativ nəticəsini mütləq şəkildə tələb etməyəcək.

Xatırladaq ki, Ukraynada baş verən hadisələr zamanı 5 azərbaycanlı həlak olub. Bu barədə Azərbaycanın Ukraynadakı səfirliyi məlumat yayıb. Qeyd olunub ki, baş vermiş ölüm hallarının təfərrüatları araşdırılır. Məlumat üçün bildirək ki, Ukrayna ərazisində davam edən hərbi qarşıdurma səbəbindən Odessa vilayətindən Moldova istiqamətində şəxsi təşəbbüslər ilə təxliyyə çalışan Azərbaycanlıların 8 avtomobildən ibarət kolonu 27 fevral 2022-ci il tarixində təxminən 2:00 radələrində tanınmamış "Dnestryanı Respublikası" yaxınlığında Kuçurqan adlanan keçid məntəqəsində naməlum şəxslər tərəfindən odlu silahlardan atəşə tutulub. Atəş nəticəsində Azərbaycan vətəndaşları olan 1976-cı il təvəllüdlü İsmayılov Neymət, 1966-cı il təvəllüdlü İsmayılov Rəhim və 1995-ci il təvəllüdlü İsmayılov Qabil həlak olublar.

Həmçinin 27 fevral 2022-ci il tarixində səhər 9:00 radələrində Xarkov şəhərinin mərkəzində sakitçilik şəraitində küçəyə su almaq üçün çıxmış Azərbaycan vətəndaşı 1987-ci il təvəllüdlü Qoşqar Məmmədov naməlum istiqamətdən gülləyə tuş gələrək, qətlə yetirilib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

## "Azəriqaz"dan sayğaclarla bağlı mühüm açıqlama

***"Ombudsmanın 2021-ci il üzrə məruzəsində mexaniki sayğaclarla bağlı həqiqəti əks etdirməyən məlumatlar var".***

Bakıvaxtı.az xəbər verir ki, bunu "Azəriqaz" İstehsalat Birliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Eldəniz Vəliyev bildirib.

Onun sözlərinə görə, ilk növbədə Azərbaycanda heç vaxt "smart" sayğaclar olmayıb, "smart" kart tipli sayğaclar olub, sadəcə əvvəlcədən ödəniş funksiyası mümkün olduğundan onlar "ağıllı" hesab edilib.

Eldəniz Vəliyev əlavə edib ki, hesabatda mexaniki sayğaclarla bağlı həqiqətə uyğun olmayan məlumat verilib: "Guya bu sayğaclar sərfiyyatın düzgün hesablanmasına imkan vermir, lakin belə bir hal qətiyyən yoxdur. Həm əvvəldən ödənişli "smart" kart tipli sayğaclar, həm də sonradan ödənişli mexaniki sayğacların sərfiyyatı yazma və ya işləmə mexanizmləri eynidir. Hər iki sayğac dövlət yoxlamasından keçir, onların sərfiyyatı yazmasından tutmuş digər parametrlərə qədər hamısı yoxlanılır. Sertifikat verildikdən sonra "Azəriqaz" İstehsalat Biliyi həmin sayğacların tətbiqinə başlayır".

Şöbə rəisi əlavə edib ki, SOCAR və "Azəriqaz" İB heyətinin birgə məsləhətləşmələri aparılır və cari ildən artıq mexaniki tipli sayğaclara xüsusi cihazların yerləşdirilməsi nəzərdə tutulur: "Həmin cihazlar vasitəsilə ödənişlərdən tutmuş, hər ilin sonunda limitin yenilənməsinə qədər bütün proseslər onlayn qaydada həyata keçiriləcək. Bunu mərkəzləşdirilmiş qaydada "Azəriqaz" İstehsalat Birliyinin nəzarəti mümkün olacaq. Yalnız bundan sonra ölkədə ağıllı sayğaclardan söhbət gedə bilər. Bunun üzərində ciddi işlər gedir".

## İpoteka ilə ev alan müəllimlərin sayı açıqlanıb

***2021-2021-ci ilərdə ümumilikdə 627 müəllim güzəştli ipoteka əldə etmək hüququndan yararlanıb.***

"Unikal" xəbər verir ki, bu barədə Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov məlumat verib. Nazirlik rəmisi bildirib ki, 2020-ci ildə 197, 2021-ci ildə isə 430 müəllim güzəştli şərtlərlə ipoteka krediti alıb.

## "Azərsu"yun sədr müavini vətəndaşları qəbul edəcək

***"Azərsu" ASC-nin sədr müavini Köçərli Həsənov martın 16-da Saatlı şəhərində Saatlı, Sabirabad və İmişli rayonlarından olan vətəndaşları qəbul edəcək.***

Qurumdan "Unikal"a verilən məlumata görə, qəbul Saatlı Sukanal İdarəsinin inzibati binasında keçiriləcək, sakinlərin müraciətləri dinləniləcək və tədbirlər görüləcək.

Qəbulda COVID-19 xəstəliyinə qarşı 3-cü doza (buster doza) ilə peyvənd olunmuş, birinci və ikinci dozadan tələb olunan müddət keçməmiş, peyvəndləməyə əks göstərişi olan, xəstəliyə yoluxaraq immunitet sertifikatına malik vətəndaşlar iştirak edə bilər. Qəbula gələnlər mütləq qoruyucu maskadan istifadə etməlidir.

Vətəndaşlar qəbul üçün Saatlı, Sabirabad və İmişli Sukanal Sahələrinə, həmçinin 431-47-67 (daxili: 22-92, 22-93) nömrəsi və office@azersu.az elektron poçtu vasitəsilə ilə "Azərsu"ya müraciət edə bilərlər.



# ASC: Bir neçə rayonda kanallar lil və palçıqdan təmizlənib

***Astarada ötən il 18517 hektar sahədə suvarma işləri aparılıb, 2021-ci ildə 187 min metr kanal lil və palçıqdan təmizlənib.***

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, Astarada su təminatı ilə bağlı əkin sahələrində problemlər yaşanmasın deyə artıq ilin əvvəlindən hazırlıq işlərinə başlanılıb. Selötürücü və suötürücü kanalların, qapalı və açıq şəbəkələrin təmizlənməsi və əkinçiliklə məşğul olan əhalinin istifadəsinə verilməsi üçün işlər mütəmadi olaraq davam etdirilir.

Əlverişli iqlim şəraitinə malik kənd təsərrüfatı rayonlarından biri olan Astarada 4500 hektardan çox suvarılan əkinə yararlı torpaq sahəsi var. Astara suvarma sistemləri idarəsi suvarma suyunun tələbatçılara vaxtında, itkisiz verilməsi, məhsuldarlığın əvvəlki illərə nisbətən artırılması üçün öhdəsinə düşən işləri görməkdədir. İdarənin əsas fəaliyyətindən biri suvarma, suötürücü və magistral kanalların işlək vəziyyətdə saxlanılmasıdır. Bunun üçün də bu ilin əvvəlindən başlayaraq artıq indiyə kimi ümumilikdə 3000 paqonometr məsafədə kanalların lil və palçıqdan təmizlənmə işləri həyata keçirilib.

Astara rayonu ərazisində 4 su mənbəyindən istifadə olunur. Lovayın və Xanbulançay su anbarları, Astaraçay və Pensərçaydan əkin sahələrinə suyun ötürülməsi təmin edilir. 2021-ci ildə bu 4 mənbədən 22 milyon 394 min kubmetir su götürülüb və sahələrə 17 milyon 800 min kubmetir su verilib. Ötən ili Astara suvarma sistemləri idarəsi üçün uğurlu saymaq olar, çünki quraqlıq olmasına baxmayaraq növbəli şəkildə və vaxtında suyun verilməsi təmin edilib. İlin əvvəlindən selötürücü və suötürücü kanalların lildən və palçıqdan təmizlənmə işlərinə başlanılmışdı və bu da öz nəticəsini verdi.

Astarada ötən il 18517 hektar sahədə suvarma işləri aparılıb, 2021-ci ildə 187 min metr kanal lil və palçıqdan təmizlənib. Dilqəm Şərifov bildirib ki, Astarada su təminatı ilə bağlı əkin sahələrində problemlər yaşanmasın deyə artıq ilin əvvəlindən hazırlıq işlərinə başlanılıb. Selötürücü və suötürücü kanalların, qapalı və açıq şəbəkələrin təmizlənməsi və əkinçiliklə məşğul olan əhalinin istifadəsinə verilməsi üçün işlər mütəmadi olaraq davam etdirilir.

Əlverişli iqlim şəraitinə malik kənd təsərrüfatı rayonlarından biri olan Astarada 4500 hektardan çox suvarılan əkinə yararlı torpaq sahəsi var. Astara suvarma sistemləri idarəsi suvarma suyunun tələbatçılara vaxtında, itkisiz verilməsi, məhsuldarlığın əvvəlki illərə nisbətən artırılması üçün öhdəsinə düşən işləri görməkdədir. İdarənin əsas fəaliyyətindən biri suvarma, suötürücü və magistral kanalların işlək vəziyyətdə saxlanılmasıdır. Bunun üçün də bu ilin əvvəlindən başlayaraq artıq indiyə kimi ümumilikdə 3000 paqonometr məsafədə kanalların lil və palçıqdan təmizlənmə işləri həyata keçirilib.

Astara rayonu ərazisində 4 su mənbəyindən istifadə olunur. Lovayın və Xanbulançay su anbarları, Astaraçay və Pensərçaydan əkin sahələrinə suyun ötürülməsi təmin edilir. 2021-ci ildə bu 4 mənbədən 22 milyon 394 min kubmetir su götürülüb və sahələrə 17 milyon 800 min kubmetir su verilib. Ötən ili Astara suvarma sistemləri idarəsi üçün uğurlu saymaq olar, çünki quraqlıq olmasına baxmayaraq növbəli şəkildə və vaxtında suyun verilməsi təmin edilib. İlin əvvəlindən selötürücü və suötürücü kanalların lildən və palçıqdan təmizlənmə işlərinə başlanılmışdı və bu da öz nəticəsini verdi.

Hazırda Astaranın Şuvi kəndinin təsərrüfatında bəzi qapalı borularda sızma və dağılmalar olduğundan həmin ərazilərdə qaynaq işləri görülür. Rayonun Pensər kəndi ərazisində müxtəlif diametrli dəmir boru şəbəkələrində və siyirtmələrdə işlər davam etdirilir. Suvarma sistemlərinin mühafizəsi, suvarma şəbəkələrinin, hidrotexniki qurğuların cari və əsaslı təmiri həyata keçirilir.

***Hüseyin***

# Məhkəmə: “8 milyon dollar Ziyad Səmədzadəyə çatıb”

***Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Baş İstintaq İdarəsinin sabiq rəisi, general-mayor Mövlam Şıxəliyev, onun müavini Yasin Məmmədov və idarənin şöbə rəisləri Vüsal Ələkbərovla Sahib Ələkbərovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilir.***

Bakı Hərbi Məhkəməsində keçirilən iclasda “Buzovna əkinçilik, heyvandarlıq və südçülük Savxozu”nun sabiq direktoru İbrahim Zeynalovdan 8 milyon dollar rüşvət alınması epizodu araşdırılıb. Hazırda yataq xəstəsi olan İbrahim Zeynalovu prosesdə oğlu İlqar Zeynalov təmsil edib. O, bildirib ki, atasını MTN-ə aparandan 10-15 gün sonra ona zəng ediblər:

“Özünü MTN-in müstəntiqi kimi təqdim edən şəxs “sabah saat 10-da MTN-də Yasin Məmmədovun yanına gəl” dedi. Növbəti gün ora getdim, məni sorğu-sual edib buraxdılar. 10-15 gün sonra atamın vəkili bir məktub gətirdi. Məktubda “50 min” sözü yazılmışdı. Bunun nə demək olduğunu soruşdum. Vəkil dedi ki, “atan bu məbləğin Yasinə çatdırılmasını istəyir”. Məktubdakı xətt atamın deyildi deyə pulu vermədim. 2 gün sonra vəkil daha bir məktub verdi. Həmin məktubda isə “dediyimə əməl elə” yazılmışdı. Bu dəfə xətt atamın idi. Məktubu alandan sonra Yasindən zəng gəldi, danışan atam idi. ”Pulu çatdır”, deyib telefonu söndürdü. 50 mini düzəldib verdim”.

İlqar Zeynalov bildirib ki, əmisi bir müddət sonra atası ilə MTN-in İstintaq təcridxanasında görüşüb. Gələndən sonra atasının vəziyyətinin ağırlaşdığını bildirib: “Atam həbsdən buraxılmazdan 2 ay əvvəl Yasin Məmmədovla görüşdüm. MTN-nin arxa qapısında mənə “10 milyon dollar verə bilərsən?” deyə sual verdi. Ona bu qədər pulumuz olmadığını dedim. Yasin 8 milyonda israr edəndə məcbur olub razılaşdım.

Bundan sonra nə mal-dövlətim vardısa, satıb pul yığmağa başladım. “Elit kərpic” şirkətini, “Mercedes Benz S 350”, “Toyota Prado”, “Mazda X9”, “Hyundai”, “Toyota Land Cruiser” maşınlarımı satdım. Rəhmətlik qardaşım İlkin Zeynalov villasını, Nəsimi bazarının arxasındakı evini, “Qurman” restoranını və digər obyektini, rəhmətlik bacım “Tri Karona” binasındakı mənzilini, yeznəm Aslan Əsədov “Toyota Prado”sunu, əmim Məzahim Zeynalov Binəqədidəki villasını satdı. Əmim əlavə 500 min dollar verdi. Atamın dostu Aydın İbrahimovdan 2 milyon manat borc aldım. Həbsdən çıxandan sonra atam villasını Aydına verdi. Digər dostu İlyas Panəliyevdən 450 min dollar borc aldıq. Atamın dayısı oğlu Cəfərağa Tağıyev 500 min dollar borc, eyni zamanda “Lexus” və “Toyota Prado”sunu satıb pullarını bizə verdi. Bütün əmlakları satdıqdan sonra yenə də pul düzəlmədi. Rəhmətlik anam Böyükxanım Zeynalova özünə məxsus bütün qızıl-zinət əşyalarını, gümüş qabları, suvenirləri Mərkəzi Univermaqda satdı. Özüm 200 min, bacım Səbinə 70 min, qayınatam 600 min dollar düzəltdi. Qohumlardan borc yığdıq. İyulun sonuna qədər çatışmayan 1 milyon 284 min dolları da düzəltdik. 8 milyonu hazır edib Yasin Məmmədova zəng vurdum. Yasin dedi ki, pulları televizor qutusuna yığ gətir MTN-in arxa qapısına. Pulu çatdırandan sonra Yasin avqustun 2-də zəng elədi ki, gəl atanı apar”.

İlqar Zeynalovun ifadəsindən sonra Mövlam Şıxəliyev Yasin Məmmədova sual verib:

- Səni and verirəm Allaha, aç, de. O pul kimə çatıb? Mənim pul söhbətindən xəbərim olub?

- O pullar Ziyad Səmədzadəyə çatıb.

Hakim İlqar Zeynalovdan Ziyad Səmədzadənin bu məsələyə nə aidiyyəti olduğunu soruşub. İlqar Zeynalov Ziyad Səmədzadənin atası İbrahim Zeynalov ilə işbirliyi olduğunu deyib: “Atam onun vasitəsilə bankdan 3,5 milyon manat kredit götürmüşdü. Bu pula görə atamla Ziyad Səmədzadənin arası dəymişdi. Bundan sonra da atamı tutdular, başımıza oyun açdılar. Bizi müflis elədilər. Qardaşım, bacım, anam rəhmətə getdi. Atamla mən bu gün rayonda vaqonda yaşayırıq”.



İlqar Zeynalov həbsdən çıxdıqdan sonra atasının Binə qəsəbəsindəki 4 hektar torpaq sahəsini də Mövlam Şıxəliyevə verdiyini, sonradan orada Yasin Məmmədovun özünə ev tikdiyini bildirib.

Məhkəmə martın 15-də davam etdiriləcək.

Məhkəmədə səsləndirilən iddialarla bağlı Ziyad Səmədzadə ilə əlaqə saxlamağa cəhd etdik. Deputatın köməkçisi Z.Səmədzadənin məşğul olduğunu bildirdi. Məsələ barəsində onun köməkçisinə məlumat versək də, münasibət öyrənmək mümkün olmayıb.

Qeyd edək ki, Mövlam Şıxəliyev MTN-də İstintaq Baş İdarəsinin rəisi vəzifəsində çalışdığı 2008-2014-cü illərdə qeyd edilən qurumun tərkibindəki şöbənin sabiq rəisi Vüsal Ələkbərov, İbtidai istintaq idarəsinin sabiq rəis müavini Yasin Məmmədov, şöbə rəisinin sabiq müavini Sahib Ələkbərovla mütəşəkkil dəstə tərkibində iş adamlarından hədə-qorxu yolu ilə külli miqdarda pul tələb etməkdə ittiham olunur. İstintaqla M.Şıxəliyevin mütəşəkkil dəstə halında ümumilikdə 14 milyon 292 min manat rüşvət qismində, 5 milyon 77 min manat məbləğində özgə əmlakını hədə-qorxu ilə tələb edib almasına əsaslı şübhələr müəyyən edilib və barəsində həbs qətimkan tədbiri seçilib. Cinayət işi üzrə 32 zərərçəkmiş var.

# 48 minə yaxın şagird imtahan verəcək

***Dövlət İmtahan Mərkəzi martın 5-6-da tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları keçirəcək.***

Mərkəzdən "Unikal"a verilən məlumata görə, imtahanlar 30 şəhər və rayonunda təşkil olunacaq. İmtahanlar saat 11:00-da başlayacaq. İmtahanların başlanmasına 15 dəqiqə qalmış - saat 10:45-də buraxılış rejimi başa çatacaq. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmayacaq.

Kütləviliyin və təmas hallarının qarşısının alınması məqsədilə imtahan iştirakçıları üçün imtahan binasına müxtəlif daxilolma vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək tövsiyə olunur.

İştirakçılar imtahana tibbi maska ilə gəlməli və onlardan düzgün (burun, ağız və çənə nahiyəsini tam örtməklə) istifadə etməlidirlər. Maskanı çıxarmaq qadağandır və bütün proses (buraxılış rejimi, imtahan müddəti, imtahan binasının tərk edilməsi) boyu istifadə olunmalıdır.

Şagirdlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

- İmtahana buraxılış vərəqəsi;

- Sağlamlıq haqqında bəyannamə (buraxılış vərəqi ilə birlikdə çap edirsiniz və imzalayırsınız. İmtahana buraxılış vərəqəsi şagirdin özündə saxlanıldığı, sağlamlıq haqqında bəyannamə isə imtahan nəzarətçisinə təhvil verildiyi üçün hər iki sənəd ayrıca vərəqdə çap olunmalıdır);

- Şəxsiyyəti təsdiq edən sənədin əsli:

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

İmtahanda iştirak edəcək şagirdlər "İmtahana buraxılış vərəqəsi"ni internet vasitəsilə DİM-in saytından fevralın 24-dən etibarən çap edib götürə bilirlər.

İmtahanlar 5-6 mart tarixlərində respublikanın 30 şəhər və rayonunda keçiriləcək.

Xatırladaq ki, imtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 216 imtahan binası, 3620 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 216 ümumi imtahan rəhbəri, 586 imtahan rəhbəri, 4506 nəzarətçi-müəllim, 442 buraxılışı rejimi əməkdaşı (mühafizə), 216 bina nümayəndəsi ayrılıb.

Martın 5-də keçiriləcək imtahanlarda 22 902, martın 6-da keçiriləcək imtahanlarda isə 24 824 nəfər olmaqla, ümumilikdə 47 726 şagirdin iştirakı nəzərdə tutulur.

İmtahanlarda 17 nəfər fiziki məhdudiyyətli (I qrup gözdən əlil, eşitmə əngəlli və digər) abituriyent də iştirak edəcək. Bu abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, gözdən əlillər üçün fərdi nəzarətçilər təyin edilib.

Hazırda imtahanlarda iştirak edəcək nəzarətçilər, imtahan rəhbərləri, mühafizə əməkdaşları ilə təlim-seminarlar keçirilir. Bütün imtahan binalarına baxış keçirilib, imtahan zallarında abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılıb.

Bundan əlavə, Mərkəz tərəfindən pandemiya şəraitinin tələblərinə uyğun olaraq imtahan binalarında bir sıra profilaktik tədbirlər - hər bir otağa düşən iştirakçı sayının sosial məsafə prinsipinə uyğun şəkildə tənzimlənməsi, imtahan heyətinin müvafiq qoruyucu vasitələrlə (əlcək, tibbi maska) təmin olunması həyata keçirilib. İmtahanın idarə olunması prosesinə ümumi imtahan rəhbəri, imtahan rəhbəri, nəzarətçi-müəllim, mühafizə əməkdaşı və s. qismində yalnız COVID-19 peyvənd sertifikatı (və ya immunitet sertifikatı) olan şəxslər cəlb olunacaqlar.

Təhlükəsizliyin təmin edilməsi məqsədilə imtahan mərkəzlərinə təkrar baxış da keçirilir və imtahan zalları, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə verilir. Ehtiyat tədbirləri çərçivəsində imtahan binasına daxil olan iştirakçılarının məsafədən ölçə bilən elektron termometrlə bədən hərarətləri yoxlanılacaq, zəruri dezinfeksiyaedici vasitələrdən istifadə olunacaqdır. İmtahana bədən hərarəti 37°C-dən aşağı olan şəxslər buraxılır.

İmtahan iştirakçıları imtahan binasına daxil olmaq üçün yoxlamadan keçərkən sosial məsafəni saxlamaqla şəxsiyyətini təsdiq edən sənədin üz tərəfini DİM əməkdaşının görəcəyi şəkildə ona tərəf uzatmalı və müvəqqəti olaraq maskasını aşağı salaraq üzünü göstərməlidir.

DİM tərəfindən pandemiya şəraitinin tələblərinə uyğun imtahanların keçirilməsi qaydaları ilə bağlı maarifləndirici videoçarx və davranış qaydaları ilə buradan tanış ola bilərsiniz.



# Bir ayda 716 zəhərlənmə - 8 ölü var

***Fevral ayı ərzində Kliniki Tibbi Mərkəzə zəhərlənmə ilə bağlı 716 nəfər müraciət edib.***



Mərkəzin Mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, onlardan 118-si Toksikologiya şöbəsinə qəbul edilib, qalanlarına isə ilkin tibbi yardım göstərildikdən sonra evə buraxılıb.

Qəbul olan xəstələrdən 55-i dərmandan, 14-ü sirkə turşusundan, 13-ü dəm qazından, 11-i etil spirtindən, 1-i göbələkdən zəhərlənib. Digərlərindən 10-u anaflaksiya səbəbindən, 7-si allergik reaksiyadan, 7-si isə botulizm səbəbindən xəstəxanaya yerləşdirilib.

Zəhərlənən şəxslərin 54-ü qadın, 50-si kişi, 14-ü uşaq olub. Həkimlərin səylərinə baxmayaraq, 116 nəfərdən (3 qadın, 5 kişi) 8-nin həyatını xilas etmək mümkün olmayıb.

# Şəhid Əbülfəzin qəhrəmanlıq dastanı

***Əbülfəz Hüseynverdi oğlu Rəhmətov. İndi bu ad dağlar diyarı, qartalar oylağı Lerikdə kiçikdən tutmuş böyüyə kimi hamı üçün doğma və əzizdir. Çünki qəlbi sevdalı igid Vətən, torpaq uğrunda canından keçərək şərəfli ölümü ilə millətinə, xalqına başucalığı gətiribdir . Bəli, minlərin ürəyində özünə əbədi məkan quran Əbülfəz ömrünün 31-ci ilində dünyadan köçsə də, indi sorağı harada bir Günəş müqəddəsliyi var oradan gəlir...***

Tükənməz Vətən sevgisi, xalqa məhəbbət uşaq yaşlarında Əbülfəzin qəlbinə hakim kəsilir. Özünü dərk edən gündən yağı dadanmış yurdunun taleyi bu yeniyetməni çox narahat edir. Erməni dığalardan işğal olunan Vətən torpağının hər qarışının qisasını almaq üçün həyatını hərbiyə bağlamağa qərar verir. Və orta məktəbi bitirib 2006-cı ildə Heydər Əliyev adına Hərbi Akademiyaya daxil olur. Oxuduğu müddətdə davranışı, mədəniyyəti, bacarığı ona hörmət gətirir. O, nizam-intizama əməl edir, bütün diqqət və səyini hərbi elminin sirlərini dərindən öyrənməyə yönəldir. Dörd ildən sonra təhsilini başa vurub leytenant rütbəsində Vətənin keşiyində durur. Daha dəqiq desək hərbi xidmətini düşmənlə üzbəüz ön cəbhədə tağım, tabor komandiri kimi yerinə yetirir. Təhsil zamanı öyrəndiyini məharətlə praktikada tətbiq edir, döyüş tapşırıqlardan üzüağ çıxır. Bütün bunlarla bərabər Vətən torpaqların azadlığı naminə hər an Ali Baş Komandanın döyüş əmrini gözləyir.

Əbülfəz müharibə meydanında erməni dığaları ilə üzüzə 2016-cı il Aprel döyüşlərində gəlir. Vətənin şərəfini, qürurunu uca tutmaqla Lələ-təpənin alınmasında düşmənə qan qusdurur. Bununla əsgər və zabitlərin gözündə hünər, igidlik nümunəsinə dönür. Nümunəvi xidmətlərinə görə " Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycanın Respublikasının Silahlı Qüvvələrinin 100 illiyi" yubileyi və 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medallarına layiq görülür.

Tovuz döyüşlərində Əbülfəz general-mayor Polad Həşimovla bir yerdə olur. Çətin anlar, müharibə dəhşətləri onun qürurunu əyə bilmir. Azərbaycanın əzəli, əbədi yurd yeri Qarabağı düşünməklə bu döyüşlərdə bir daha mətinləşir.

İlahi bir məhəbbətlə Vətəninə bağlı olan Əbülfəz kapitan rütbəsinə ucalır. Kəşfiyyatçı və motoatıcı taborun rəisi olan qəhrəman zabit İkinci Qarabağ müharibəsi başladığı ilk gündən erməni dığalarına qarşı gedən döyüşlərdə şücaət göstərir, onlara sarsıdıcı zərbələr vurur. Qarabağı azad görmək arzusu ilə ağır müharibə meydanlarında cəsurluq, igidlik, mərdlik nümayiş edir. Füzulidə, Cəbrayılda, Qubadlıda torpaq naminə əsl tarix yazır. Vətən yolunda şəhidlik zirvəsinə ucaldığı savaş yeri isə Cəbrayılın Hovuslu kəndi olur. 16 oktyabrda burada ölüm-dirim döyüşdə son güllərsinə qədər mənfur düşmənlə vuruşur...

Şəhidlik ən müqəddəs, uca zirvədir. Bu zirvəyə ucalanlar isə heç zaman ölmürlər. İgid kapitan Əbülfəz də belə bir şərəfli həyat yolu keçdi. Ölümündən sonra dövlət tərəfindən layiq görüldüyü "Vətən uğrunda", "İgidliyə görə", "Hərbi xidmətdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə" medalları və "Rəşadət" ordeni qəhrəman lerikli balasının Vətən, xalqı sevgisinin təcəssümündən irəli gəlir.

***Zəfər Orucoğlu, AJB üzvü***



## Əhmədinejat Ukraynaya dəstək verdi

***”Sizin şərəfli və demək olar ki, misilsiz müqavimətiniz bəşəriyyətin düşmənlərinin şeytani hiylələrini üzə çıxardı. İnanın ki, böyük İran xalqı sizin bu qəhrəmanlıq əzminizə heyran olaraq yanınızdadır”.***

”Unikal” xəbər verir ki, bu sözləri İranın keçmiş prezidenti Mahmud Əhmədinejat özünün rəsmi Tvitter səhifəsində Ukraynaya və Zelenskiyə dəstək olaraq paylaşıb.

## Ermənistanın yeni prezidenti seçildi

***Vahan Xaçatryan Ermənistanın prezidenti seçilib.***

”Unikal” xəbər verir ki, ikinci cəhddə parlament beşinci dövlət başçısını seçə bilib.

Hakim “Mülki müqavilə”dən olan namizədin lehinə 71 deputat səs verib.

## "Liderlər hərəkətə keçməsə, nəticələr çox ağır olacaq" - Naftali Bennet

***İsrailin baş naziri Naftali Bennet Ukraynadakı müharibədə vəziyyətin pis olduğunu və dünya liderlərinin hərəkətə keçməməsinin nəticələrinin ağır olacağını bildirib.***



”Unikal” xəbər verir ki, Bennet bu barədə Təl-Əvivdə keçirilən kibertəhlükəsizlik konfransında çıxışı zamanı danışıb.

O, Ukraynadakı müharibəyə toxunaraq, ”Müharibəyə başlamaq çox asandır, amma onu bitirmək çətindir” - ifadəsini işlədib.

Ukrayna üçün hərəkətə keçməyə çağıran Bennett”Biz başa düşməliyik ki, dünya liderləri hərəkətə keçməsə, bu, daha pis ola bilər. Mən burada misli görünməmiş insan itkisindən, Ukraynanın tamamilə məhv olmasından, milyonlarla qaçqından danışıram”, - deyib.

Böhrandan çıxmağın hələ də gec olmadığını vurğulayan İsrail baş naziri, ”Dünyanın əsas aktyorlarının məsuliyyəti tərəfləri tez bir zamanda döyüş meydanından çıxarıb danışıqlar masasına oturtmaqdır” , - deyə çıxışında bildirib.

# Paşinyan Azərbaycanla bağlı təcili qərarlara hazırlaşır - Nələr gözlənilir?

***Armen Sarkisyanın prezidentlik postundan istefa verməsi Azərbaycanla gələcək münasibətlərin müəyyənləşdirilməsi baxımından Paşinyana bir xeyli imkanlar açmış oldu.***

Əslində Armen Sarkisyanın prezidentlik postundan istefasından cəmi bir gün sonra daxildə hər hansı bir çaxnaşmaya səbəb olacaq şayiələrə yol verməmək məqsədilə Nikol Paşinyanın ilin ilk mətbuat konfransını təşkil etməsi Sarkisyanın onun üçün bu zamana kimi nə qədər böyük manea olduğunu nümayiş etdirirdi.

A. Sarkisyanın Nikol Paşinyanın hakimiyyətə gəlməsindən əvvəl prezident təyin olunması məsələsi də iki Ermənistan liderindən birinin əvvəl-axır postundan getməsinə səbəb olacağı ilə bağlı iddiaları daha artırırdı. Çünki Serj Sarkisyanın kadrı olan Armen heç cürə ”Qarabağ klanı”nın tapşırıqları və istəklərinə qarşı gedə bilməzdi.



Əvvəl gündən Paşinyanın qəbul etdiyi qərarlarla Armen Sarkisyanın fikirlərimim ziddiyət təşkil etməsi, xüsusilə də İkinci Qarabağ müharibəsindəki ağır məğlubiyyətdən sonra tərəflərin buna görə bir-birini davamlı olaraq ittiham etməsi, təqsirləndirməsi deyilənlərin növbəti təsdiqidir. Məhz bu narahatçılığı aradan qaldırmaq üçün Paşinyan Sarkisyanın istefası üçün əlindən gələni etdi.

Armen Sarkisyanın istefasından sonra müxalifətin baykot edib, seçkilərə qatılmayacağını dediyi prezident seçkilərinin ilk turu bu gün reallaşıb. Lakin Ermənistanın yeni prezidentinin seçilməsi məsələsi parlamentin çərşənbə günü (bu gün) keçiriləcək iclasının gündəliyinə daxil edilsə də ölkənin yeni dövlət başçısını seçmək mümkün olmayıb.

Yeni dövlət başçısı postuna yeganə namizəd baş nazir Nikol Paşinyanın komandasının üzvü, iqtidara loyallığı ilə tanınan yüksək texnologiyalar sənayesi naziri Vaaqn Xaçaturyan olduğunu nəzərə alsaq, o zaman seçkilərin ilk turunda gözlənilən nəticənin əldə edilməməsi məntiqi sonluq idi.

Bu məsələni iqtidar nöqteyi-nəzərdən Ermənistandakı çox ciddi hüquqi prosedur çatışmazlığının ayağına da yazmaq olar. Belə ki, vaxtilə Ermənistanda prezident idarəetmə formasının parlament respublikasına dəyişdirilməsi ilə konstitusiya islahatı Qarabağla bağlı danışıqlar prosesini ləngitmək və pozmaq üçün aparılmışdı. Nominal olan Ermənistan prezidenti vəzifəsinə ”dövlətçiliyin təminatçısı” statusu verilmişdir, lakin bu statusun həyata keçirilməsi mexanizmi təmin edilməyib. Eyni zamanda, baş nazir ölkənin ən yüksək və ən səlahiyyətli vəzifəli şəxsi olsa da, xalq tərəfindən deyil, parlament tərəfindən seçilir. Və buna görə də danışıqlar prosesində qərarlar qəbul edərkən parlamentin razılığını almalı idi. Beləliklə, Azərbaycan Prezidentindən fərqli olaraq, Ermənistanda iki ali vəzifəli şəxsin səmərəli danışıqlar aparmaq üçün lazımi səlahiyyətləri yox idi. Erməni tərəfinin bu addımı da məhz buna hesablanmışdı. Lakin ermənilər özləri qurduqları tələyə düşdülər. Nəticə nə oldu?! Danışıqların pozulması 44 günlük müharibəyə və Azərbaycanın ərazilərini 30 illik işğaldan azad etməsinə gətirib çıxardı ki, bu da Ermənistanı dərin böhranla üz-üzə qoydu.

Müxalifətdə olan ”Ermənistan” və ”Şərəf duyuram” parlament bloklarının prezidentliyə namizəd irəli sürmək fikrində olmadıqlarını və hazırkı vəziyyətdə hətta dolayısı ilə bu seçkilərdə iştirakın və legitimləşdirilməsini qəbuledilməz və yanlış hesab etdiklərini artıq həftələr öncədən bəyan etdiklərini nəzərə alsaq, o zaman Paşinyana qarşı təzyiqləri ciddi şəkildə artıran müxalifət cəbhəsindən dəstək gözləmək sadəlöhvlük olardı.

Amma konstitusiyaya görə Ermənistanda prezidentin seçilməsi üçün üç tur seçki nəzərdə tutulur. İlk turda prezidenti seçmək üçün 107 yerlik parlamentdən minimum 81 səs tələb olunduğu məsələsinə bir də qayıtsaq, bu o deməkdir ki, Paşinyana öz namizədini irəli sürmək üçün birinci turda müxalifətin səsləri də lazım idi. Təbii ki, bu, heç cür inandırıcı görünmürdü. Amma qarşıda daha iki turun olduğunu, ikinci və üçüncü turlarda namizədlərə daha az səs (müvafiq olaraq 65 və 54 səs yeni prezidentin seçilməsinə kifayət edir - red) lazım olduğunu nəzərə alsaq, o zaman Nikol Paşinyanın istəyinə çatacağı istisna edilmir. Belə olacağı təqdirdə hakim fraksiya özü lazımi sayda səsi təmin edə biləcək.

İndi Ermənistanda bir çox siyasi dairələr, fəallar yenidən prezident və ya yarı-prezident ölkəsi olması üçün konstitusiyaya dəyişiklik edilməli olduğu barədə fikirlər səsləndirirlər. Lakin nəzərə alsaq ki, Paşinyan parlamentə nəzarət edir, tam səlahiyyətə malikdir, faktiki olaraq təkbaşına müəyyən qərarlar və ya qanunlar qəbul edə bilir, o zaman bu dəyişikliyin onun üçün sərfəli olmadığını deyə bilərik.

Armen Sarkisyanla ulduzları heç cürə barışmayan Paşinyanın yeni prezident postuna namizədi kimi Vaaqn Xaçaturyanın irəli sürülməsi kifayət qədər məntiqli görünür. Çünkü Paşinyana Ermənistan prezidenti vəzifəsinə ambisiyaları olmayan ona tam sadiq bir adam lazımdır.

Bu gün müxalifətin hakimiyyətə gəlmək üçün isə yalnız bir variantı qalır - hərbi çevrilişə cəhd. Bu variantı da istisna etmək olmaz. Elə seçki öncəsi Ermənistan silahlı qüvvələrinin bölmələri martın 2-si saat 20:50-dən 21:16-dək dövlət sərhədinin Tovuzqala rayonunun Çinarlı yaşayış məntəqəsində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Tovuz rayonunun Koxanəbi və Əsrik Cırdaxan yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı silahlardan atəşə tutması müxalifətin, keçmiş ”Qarabağ klanı”nın Paşinyanın planlarını pozmaqdan əl çəkməyəcəklərindən xəbər verir. Bu hadisə eyni zamanda bir daha göstərir ki, baş nazir hələ də Ordunu əlində komponentləşdirməkdə çətinlik çəkir. Deməli ki, Paşinyan ciddi hərbi islahatlara əl atmazsa, onun da taleyi bir tük üzərindədir.

İndiki məqamda görünən odur ki, Xaçaturyan prezident seçiləcək. Bu proseslərin qarşıdakı günlərdə necə inkişaf edəcəyini çox yaxında daha aydın müəyyənləşdirmək imkanı yaranacaq. Amma bir şey bəllidir ki, Ermənistan Ruisyanın vasitəçiliyi ilə imzaladığı sənədlər üzərindən götürdüyü öhdəlikləri yerinə yetirməyincə, manipulyasiya cəhdlərinə ara verməyincə bu ölkədə böhran vəziyyəti daha acınacaqlı hal alacaq.

Paşinyan da artıq regionda və dünyada bir dövlətin bütövlüyünün, suverenliyinin qorunub saxlanılması üçün güclü iqtisadiyyata malik olmağın nə qədər böyük üstünlük demək olduğunu dünən parlamentdəki çıxışından (”Gündəlikdə regional kommunikasiyaların açılması, Ermənistan-Azərbaycan sərhədinin demarkasiya və delimitasiya məsələsi, o cümlədən Azərbaycanla sülh sazişinə dair danışıqların başlanması məsələsi var” - red) belə başa düşülür ki, gec də olsa anlamağa başlayıb. Görünür erməni baş nazir artıq başa düşür ki, Ukraynada müharibə fonunda Cənubi Qafqazda postmünaqişə dövrünün siyasi mənzərəsinin tamamlanması prosesində vaxt itimək olmaz.

***Təhməz Əsədov***

# Murad Musayev "Krasnodar"a qayıdır?

***”Sabah”ın baş məşqçisi Murad Musayev Rusiya ”Krasnodar”ını yenidən çalışdıra bilər.***

Bu barədə championat.com saytı məlumat yayıb. Bildirilib ki, Rusiya Premyer Liqası təmsilçisi 38 yaşlı mütəxəssisi baş məşqçisi vəzifəsinə qaytarmaq variantını nəzərdən keçirir .

“Musayev əsas namizədlərdən biridir. Ötən gün mütəxəssis Bakını tərk etdi” - deyə məlumatda bildirilir.

Qeyd edək ki, ”Krasnodar” baş məşqçisi Daniel Farke ilə yolları ayırıb.

Xatırladaq ki, M.Musayev ötən ilin oktyabrında ”Sabah”la 2 illik müqavilə imzalayıb. Rus mütəxəssis 2018-2021-ci illərdə ”Krasnodar”ı çalışdırıb.



# “Sabah”dan Murad Musayevla bağlı açıqlama

***“Sabah”ın baş məşqçisi Murad Musayevin sabiq klubu “Krasnodar”a (Rusiya) qayıdacağı ilə bağlı məlumatlar həqiqəti əks etdirmir.***

Bu barədə Qol.az saytına açıqlamasında Bakı təmsilçisinin mətbuat xidmətinin rəhbəri Elnur Həmidov bildirib. O, “Sabah”da 38 yaşlı mütəxəssisin “Krasnodar”ı çalışdıracağı ilə bağlı heç bir məsələnin müzakirə olunmadığını deyib:

“Krasnodar”da daha öncə baş məşqçi istefası gerçəkləşəndə də oxşar xəbərlər yayılmışdı. Murad Musayevin uzun müddət “Krasnodar”ın akademiyasında və əsas komandasında çalışmasını və müəyyən uğurlar qazanmasını nəzərə alsaq, hər dəfə bu klubda baş məşqçi ayrılığı yaşananda Rusiya mətbuatının bu cür iddia ilə çıxış etməsi başadüşüləndir. Ancaq klub daxilində belə bir məsələ müzakirə edilməyib”.



E.Həmidov M.Musayevin Krasnodara şəxsi işləri ilə əlaqədar getdiyini və onun hazırda geri qayıtdığını söyləyib.

Qeyd edək ki, Murad Musayev 2018-2021-ci illərdə də “Krasnodar”ı çalışdırıb. O, müxtəlif zamanlarda klubun futbol akademiyasında da işləyib. Mütəxəssis ötən ildən “Sabah”a baş məşqçilik edir.

Xatırladaq ki, “Krasnodar”ın baş məşqçisi Daniel Farke ötən gün klubdan ayrılıb.

# Polşa birbaşa finala yüksələcək - DÇ-2022

***DÇ-2022-nin seçmə mərhələsinin pley-off mərhələsində Rusiya millisinə əvəzləyici axtarmayacaq.***

Qol.az ”Przeqlad Sportovy” nəşrinə istinadən xəbər verir ki, Polşa millisi avtomatik olaraq pley-off mərhələsinin finalına yüksələcək.

Bildirilir ki, FİFA hələ qərarını rəsmən açıqlamayıb. Martın 4-də bununla bağlı açıqlama veriləcəyi gözlənilir. Polşa avtomatik olaraq finalın pley-off mərhələsinə yüksələcək və burada İsveç-Çexiya cütünün qalibi ilə oynayacaq.

Eyni zamanda, hazırda FİFA və UEFA-da heç kim Rusiyaya qarşı sanksiyaların ləğvi və ya yumşaldılmasını müzakirə etmək istəmir.

Qeyd edək ki, FİFA və UEFA Rusiya klubları və bütün yaş qrupu üzrə milli komandaları növbəti qərar açıqlanana qədər bütün beynəlxalq yarışlardan kənarlaşdırılıb.



# Əcnəbilərə Rusiya klubları ilə müqavilələni ləğv etmək icazəsi verilə bilər

***FİFA və UEFA əcnəbi futbolçulara Rusiya Premyer Liqası (RPL) klubları ilə müqavilələri ləğv etməyə icazə verə bilər.***

Bu barədə ”Jutarnij List” məlumat yayıb. Bildirilib ki, belə bir qərar yaxın 7-10 gün ərzində verilə bilər. Əgər FİFA və UEFA əcnəbilərə RPL klubları ilə müqaviləni birtərəfli qaydada pozmağa icazə versə, bu, həmin futbolçuların gələcəyinə təsir etməyəcək və onlar cəzalandırılmayacaqlar.



Oyunçuların İstanbul və ya Belqrad vasitəsilə Rusiyanı tərk etmək imkanının olması üçün qərarın ən qısa zamanda verilməsi planlaşdırılır.

# Çeferindən xəbərdarlıq - Avrokuboklara buraxılmayacaqlar

***UEFA prezidenti Aleksander Çeferin Avropa Superliqasının yeni layihəsinin hazırlanmasına münasibət bildirib.***



Sloveniyalı futbol funksioneri turnirin yeni formatda baş tutması ideyasını növbəti dəfə pisləyib.

O, Avropa Superliqasında iştirak edəcək klublara xəbərdarlıq da edib: “Ötən il Superliqa adlı mənasız bir ideyanı həyata keçirdilər. Eyni fikri indi də müharibə zamanı ortaya atıblar. Əgər hansısa klub Avropa Superliqasına qatılsa, bizim turnirlərimizdə oynamayacaq”.

Qeyd edək ki, “Yuventus”, “Real” və “Barselona” rəhbərləri ümumilikdə 20 komanda olmaqla iki diviziondan ibarət turnir təşkil etməyi planlaşdırır. Yarışın yeni formatda layihəsi bu gün təqdim ediləcək.

# “Formula-1” Rusiya Qran-prisi ilə müqaviləni ləğv etdi

***“Formula-1” üzrə Rusiya Qran-prisi ilə müqaviləyə xitam verilib.***

Buna səbəb kimi Rusiya və Ukrayna arasındakı münaqişə göstərilib.

Təşkilatçılar bildirib ki, baş verənlərdən sonra Rusiyada yarış keçirmək mümkünsüzdür. Bu üzdən Rusiya Qran-prisi ilə müqavilə ləğv edilib

Bu isə o deməkdir ki, bu ilki Soçu Qran-prisi ilə yanaşı, gələn il Sankt-Peterburqda baş tutacaq mərhələ də gerçəkləşməyəcək.

Qeyd edək ki, “Formula-1”də yeni mövsümə martın 20-də Bəhreyndə start veriləcək. 10-12 iyunda Bakıda Azərbaycan Qran-prisi keçiriləcək.

# “Sumqayıt”dan antirekord

***“Sumqayıt” mövsümün antirekorduna imza atıb.***

“Gənclik şəhəri” təmsilçisi Premyer Liqanın XVII turunda “Qəbələ”yə uduzub.

Qapısında 4 cavabsız top görən sumqayıtlılar mövsümdə 4-cü dəfə böyük hesabla uduzub. Bu göstərici yeni antirekorddur.

“Səbail” üç belə yenilgi alıb. “Keşlə”, “Neftçi”, “Sabah” və “Qəbələ”nin hərəyə bir ağır məğlubiyyəti var. Yalnız “Qarabağ”la “Zirə”də belə uğursuzluq yoxdur.

“Sumqayıt” həm də bu məğlubiyyətlərin 3-nü evdə alıb. Mövsüm ərzində 4 dəfə qonaqlar meydan sahiblərini darmadağın edibsə, bunun 75 faizi eyni komandanın ayağına yazılıb.

Həm də sumqayıtlılar mövsümün ən ağır ev məğlubiyyətini təkrarlayıb. “Qarabağ”dan 4 qol buraxan sumqayıtlılar bu dəfə də “Qəbələ” qarşısında aciz qalıb.

# “Qarabağ” çempionluqdan ayıran faiz - 0,5

***Azərbaycan Premyer Liqasında klubların 2021/22 mövsümü üçün çempionluq şansları yenilənib.***

17 turdan sonra çempionata başçılıq edən “Qarabağ” qızıl medallara yaxın görünür.

Ehtiyatında bir oyun olan Ağdam təmsilçisinin çempionluq şansları 99,5 faiz qiymətləndirilib. Qurban Qurbanovun kollektivinin mövsümü ən yaxın izləyicisindən 19 xal öndə - 67 xalla yekunlaşdırması proqnozlaşdırılır. Hazırda komandanın aktivində 37 xal var.

Medallara iddiaçılar “Neftçi”, “Qəbələ” və “Zirə”nin cüzi də olsa, birincilik şansı qalır. Son çempionun, həmçinin adıçəkilən Rəşad Sadıqovun komandanın titula yiyələnmək ehtimalı 0,2 faizə bərabərdir. “Qəbələ”də isə bu 0,1 faizdir.

Ancaq “Neftçi” mövsümün sonunda gümüş mükafata daha şanslı hesab edilir. “Zirə”nin bürünc medal qazanacağı hesablanısa, hazırda ikinci yerdə qərarlaşan “Qəbələ”nin 4-cülüklə kifayətlənəcəyi vurğulanıb.